# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

02 may 2026-cı il, şənbə
№ 076 (7143)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!



## Paytaxtımız davamlı inkişaf yolunda...

# Prezident və birinci xanım Bakının İslam Səfərli küçəsinin yenidənqurmadan sonra açılışında iştirak ediblər



Bax səh. 2

## Avropada birinci!

Bax səh. 2

## Parlamentin iclasında...
# Milli Məclis Avropa Parlamenti ilə əməkdaşlığı dayandırıb

Bax səh. 3

## Azərbaycan qlobal iqlim çağırışlarına qarşı birgə mübarizənin fəal iştirakçısıdır

Azərbaycan hazırda dünyanın ən aktual çağırışlarından biri olan iqlim dəyişmələirinə həssas yanaşma sərgiləyən ölkələr sırasında yer alır. Təsadüfi deyildir ki, ölkəmizdə yeni strateji mərhələ üçün müəyyənləşdirilən 5 mühüm prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım" prioritetidir.

Bu sahədə qarşıya qoyulan hədəflərə çatmaq üçün ardıcıl tədbirlər görülür. Bu günlərdə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının növbəti iclası keçirilib. İclası Baş nazirin müavini, Dövlət Komissiyasının sədri Samir Şərifov açıb. Tədbirdə respublikamızda müvafiq sahədə həyata keçirilən dövlət siyasətinin əhatə dairəsinin kifayət qədər geniş olduğuna diqqət çəkilib və aidiyyatı qurumların təmsilçiləri görülən işlər barədə ətraflı məlumat veriblər.

İclasda Samir Şərifov respublikamızın qlobal iqlim çağırışlarına qarşı birgə mübarizənin fəal iştirakçısı olduğuna xüsusi vurğu edib. Azərbaycan iqlim dəyişiklikləri ilə bağlı qlobal çağırışları hər zaman dəstəkləyib və buna öz töhfələrini verib. Respublikamız 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (UNFCCC) təsdiqləyib. Ölkəmiz Milli Məclisin 18 iyul 2000-ci il tarixli Qərarı ilə Kioto Protokoluna qoşulub. Azərbaycan həmçinin...

Bax səh. 3



Bax səh. 4

## Əbədiyyətə qovuşan ömrün 103-cü baharı

## 1942-ci ildən başlayan yol...

Bax səh. 5

## Din bir olsaydı yer üzündə əgər...

Bax səh. 7

## "Yaşıl iqtisadiyyat" quruculuğuna töhfə

Mərkəzi Bank (MB) Maliyyə Sisteminin Yaşıllaşdırılması üzrə Mərkəzi Banklar və Nəzarət Qurumları Şəbəkəsinə (NGFS) tamhüquqlu üzv kimi qəbul olunub. Üzvlük Azərbaycanın Mərkəzi Bankının qlobal şəbəkənin tamhüquqlu üzvü kimi işçi qruplarının fəaliyyətində iştirakına geniş imkanlar yaradacaq, iqlim maliyyəsi üzrə ssenarilərin hazırlanmnası və təhlili, "yaşıl maliyyə" layihələrində təmsil olunmasını təmin edəcək. Eyni zamanda, MB maliyyə sistemlərinin yaşıl seqmentləri üzrə pul siyasətlərinin həyata keçirilməsində fəal rol alacaq, prudensial nəzarət çərçivələrinə inteqrasiyası sahələrində kollektiv tədqiqatlarda iştirak etməklə, bu proseslərdən faydalanacaq.

Mərkəzi Bankın bu şəbəkəyə qoşulması onun dayanıqlı maliyyə gündəliyinin, o cümlədən "yaşıl taksonomiya"nın tətbiqi, "yaşıl istiqraz" bazarının formalaşdırılması və maliyyə sektorunda iqlim riskləri ilə bağlı açıqlamalarının tətbiqinin dərinləşdirilməsini şərtləndirəcək. Mərkəzi Bankın Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsinin icrası istiqamətində əsas təşəbbüslərdən biri olan bu üzvlük həm də Azərbaycanın Paris İqlim Sazişi çərçivəsindəki milli öhdəlikləri və iqtisadiyyatın yaşıl, dayanıqlı inkişaf istiqamətində transformasiyası üzrə siyasəti ilə uzlaşır.

Beynəlxalq miqyasda "yaşıl taksonomiya"lar maliyyə sistemini "yaşıllaşdırmaq"...

Bax səh. 5

## Boğazlar bağlanarsa...



Bax səh. 6

## Okampo və Borrelin gizli "Karapetyan əməliyyatı"...



Bax səh. 6

# Paytaxtımız davamlı inkişaf yolunda...

## Prezident və birinci xanım Bakının İslam Səfərli küçəsinin yenidənqurmadan sonra açılışında iştirak ediblər






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 1-də Bakı şəhərinin Səbail və Yasamal rayonlarını əhatə edən İslam Səfərli küçəsinin yenidənqurmadan sonra açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma görülmüş işlər barədə məlumat verdi.

Bildirilib ki, Azərbaycan prospektindən başlayaraq Nigar Rəfibəyli küçəsinin bir hissəsi də daxil olmaqla, İslam Səfərli küçəsi boyunca Mirzəağa Əliyev küçəsinədək olan ərazi tam şəkildə abadlaşdırılıb. Bu ərazidən Mərkəzi Parka piyadaların rahat hərəkəti üçün keçid təmin olunub.

İslam Səfərli küçəsi ilə kəsişən 8 küçədə, eyni zamanda, Təbriz Xəlilbəyli və Mirzə İbrahimov küçələrinə qədər olan hissədə abadlıq işləri yerinə yetirilib. Abadlaşdırılan küçələrin ümumi uzunluğu 1350 metrdir. Bu küçələrdə su və çirkab sularının axıdılması xətləri tamamilə yenilənib, qaz xətləri yeraltı sistemlə əvəzlənib. Bundan başqa, küçələrdə yerləşən müxtəlif təyinatlı binalarda yenidənqurma və bərpa işləri görülüb, sakinlərin və şəhərimizin qonaqlarının istirahəti üçün lazımi şərait yaradılıb, oturacaqlar qoyulub, geniş yaşıllaşdırma işləri həyata keçirilib.

Layihənin icrası piyadalar üçün Fəvvarələr meydanından birbaşa Qış parkına çıxış imkanı yaradır. Burada



XIX əsrin sonu-XX əsrin əvvəllərində inşa edilmiş yerli əhəmiyyətli memarlıq abidələri də mövcuddur. Bu isə ərazinin istər yerli sakinlər, istərsə də qonaqlar üçün cəlbediciliyini daha da artırır.

Avtomobil yollarının piyada yolları ilə əvəzlənməsi ərazidəki mağaza, kafe və restoranların fəaliyyətinə müsbət təsir edəcək, kiçik bizneslər üçün yeni imkanlar yaradacaq.

Qeyd edək ki, bu gün paytaxtımız dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Bakının sosial infrastrukturunun müasirləşdirilməsi, sakinlərin və şəhərə gələn qonaqların rahatlığının təmin edilməsi istiqamətində indiyədək ardıcıl tədbirlər görülüb və bu layihələr hazırda da davam etdirilir. Təsadüfi deyil ki, paytaxtımıza gələn qonaqlar şəhərin gözəlliyinə, təmizliyinə valeh olduqlarını həmişə vurğulayırlar. Bakıda müasir şəhərsalma tendensiyalarına uyğun atılan addımların tərkib hissəsi olan mikromobillik həllərinin uğurla icrası, avtomobil yollarının piyada yolları ilə əvəzlənməsi həm sakinlərin, həm də turistlərin rahatlığına xidmət edir. İnsanların sıx olduğu yerlərdə belə layihələrin icrası, eyni zamanda, son dövrlərdə həyata keçirilən şəhərsalmayönümlü planlaşdırmaya da töhfə verir. Beləliklə, paytaxtın davamlı inkişaf strategiyasının mühüm elementi olan bu addımlar Bakının həm müasir, həm də piyadalar üçün rahat şəhər kimi inkişafında xüsusi rol oynayır.



# Avropada birinci!



Azərbaycan idmançıları bu günlərdə daha bir möhtəşəm uğura imza atıblar. Belə ki, güləşçilərimiz Avropa çempionatında komanda hesabında çempion adını qazanıblar. Prezident İlham Əliyev Albaniyanın paytaxtı Tiranada keçirilmiş Avropa çempionatında komanda hesabında Avropa çempionu olan yunan-Roma güləşi və sərbəst güləş, həmçinin qadın güləşi üzrə medal qazanmış idmançıları və onların məşqçilərini qəbul edib. Qəbuldakı çıxışındaTiranada keçirilən Avropa çempionatında güləşçilərimizin uğurunu dəyərləndirən dövlətimizin başçısı bildirib ki, bu qələbə bizim hamımızı sevindirdi. “Azərbaycan güləşçiləri bir daha göstərdilər ki, onlar Avropada birincidirlər. Avropa çempionatında komanda hesabında birinci olmaq, əlbəttə ki, böyük nailiyyətdir”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

**Tiranada qızıl dubl**

İdman dünyada xalqı, ölkəni tanıtmaq üçün ən yaxşı vasitələrdən biridir. Azərbaycan idmançıları hər dəfə beynəlxalq yarışlarda qalib gəldikdə, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb bayrağımızı dalğalandırdıqda, himnimizi səsləndirdikdə harada yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlıları sonsuz qürur hissi keçirirlər. Bu qələbələr doğma Azərbaycanımızın adına yazılır. Eyni zamanda, idmanın bu və ya digər növündə əldə olunan qələbələr böyük tərbiyəvi əhəmiyyətə malikdir. Bu sahədəki uğurlar xüsusilə də gənc nəsildə vətənpərvərlik hissini gücləndirir, onları pis vərdişlərdən uzaq olmağa, sağlam həyat tərzi keçirməyə sövq edir.

Tiranada baş tutan turnirdə Avropa birincisi olmaq da asan başa gəlməyib. Hazırda dünyada və Avropada güləş məktəbi kifayət qədər güclüdür və idmançılar arasında ciddi rəqabət var. Bu rəqabətdə Azərbaycan idmançılarının hamıdan üstün olduqlarını təsdiqləmələri ona dəlalət edir ki, ölkəmizin güclü güləş ənənələri bu gün də yaşayır və inkişaf edir. Hazırda idmanın bu sahəsi ilə məşğul olmaq üçün paytaxtda və regionlarda geniş imkanlar var. Gənclər bütün ölkə üzrə tikilib istifadəyə verilən Olimpiya İdman komplekslərində, güləş zallarında məşqlərə qatılmaq və öz ustalıqlarını artırmaq imkanlarına malikdirlər. Öz növbəsində güləşə olan böyük maraq seleksiya işini asanlaşdırır.

Qeyd edək ki, respublikamız Avropa çempionatında 25 güləşçi ilə təmsil olunub. Yarışlarda sərbəst güləş üzrə millimiz 3 qızıl, 2 gümüş və 1 bürünc medal qazanaraq 152 xalla 6-cı dəfə Avropa çempionu adını qazanıb. Yunan-Roma güləşi üzrə millimiz isə 2 qızıl və 3 bürünc medalla komanda hesabında 133 xal toplayaraq Avropa birincisi olub. Beləliklə, Azərbaycan 2022 və 2025-ci illərdə olduğu kimi, həm yunan-Roma, həm də sərbəst güləş üzrə komanda hesabında Avropa çempionu olaraq qızıl dubla imza atıb. “Şadam ki, tanınmış güləşçilərlə bərabər gənc güləşçilərimiz də böyük nəticələr əldə edirlər. Bu onu göstərir ki, məşq prosesi, seleksiya prosesi düzgün qurulubdur”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

**Qalib xalq həm də idman uğurları ilə fəxr edir**

İdmançıların əzmkarlığı öz yerində. Ancaq aydın məsələdir ki, məqsədyönlü siyasət, ardıcıl dövlət qayğısı olmadan böyük idmanda yaxşı nəticələr qazanmaq mümkün deyil. Bu baxımdan Azərbaycanın nümunəsi təqdirəlayiqdir. Xüsusilə də qəbulda xatırladıldığı kimi, Milli Olimpiya Komitəsinə Prezident İlham Əliyevin rəhbərlik etməsi respublikamızda idmanın inkişafı üçün geniş imkanlar açıb. Prezident İlham Əliyevin idmançılarla görüşləri müntəzəm hal alıb. Onun diqqət və qayğısı sayəsində Azərbaycanda idman infrastrukturu təminatı baxımından dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə yüksəlib. Məhz bu qayğının nəticəsidir ki, idmançılarımız həm güləşdə, həm də digər sahələrdə yüksək nəticələr qazanırlar. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu gün qalib dövlət və qalib xalq kimi yaşayan dövlətimiz, xalqımız, o cümlədən idman uğurları ilə fəxr edir.

Xüsusilə də idmançılarımızın Olimpiya



Oyunlarında uğurlu çıxışları respublikamızda idmanın inkişafına əyani sübutdur. Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. İdmançılarımız sonuncu - “Paris - 24” 33-cü Yay Olimpiya Oyunlarında daha uğurlu nəticələr qazanmağa nail olublar. Qeyd edək ki, Azərbaycan “Paris-2024” Yay Olimpiya Oyunlarında 15 idman növü üzrə 48 idmançı ilə təmsil olunub. Bütövlükdə, idmançılarımız Parisdə 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanıblar. Həmçinin Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası Paris Olimpiadasında 5-ci pillədə qərarlaşmaqla tarixi uğura imza atıb. Yekun nəticələrə görə, Azərbaycan son Olimpiya Oyunlarında dünya ölkələrinin sıralamasında 30-cu yerdə qərarlaşıb ki, bu da kifayət qədər yaxşı göstəricidir.

**Beynəlxalq idman ictimaiyyətinin Azərbaycana artan inamı**

Azərbaycanın idmanda qazandığı uğurlar beynəlxalq səviyyədə də diqqətdən kənarda qalmır. Son illərdə dünya idman ictimaiyyətinin Azərbaycana böyük inam bəslədiyinin şahidiyik. Xatırladaq ki, Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakı şəhərini 2026-cı il üçün dünyanın “İdman paytaxtı” seçib.

Eyni zamanda, indiyədək Azərbaycan bir sıra beynəlxalq səviyyəli idman yarışlarına ev sahibliyi edib. Böyük uğurla keçən bu yarışlardan yalnız bir neçəsi barədə daha geniş bəhs etmək yerinə düşər. “Qoca qitə”nin tarixində 2015-ci ilin yayında ilk dəfə təşkil olunan Birinci Avropa Oyunlarına Azərbaycanın ev sahibliyi etməsi bizim üçün daimi qürur mənbəyi olaraq qalacaq. Birinci Avropa Oyunlarından sonra İslam dünyası IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi hüququnu Azərbaycana həvalə etdi. Paytaxt Bakı 2016-cı ildən başlayaraq dünyada çox məşhur olan Formula-1 yarışlarına ev sahibliyi edir. Ötən ilin sentyabr-oktyabr aylarında isə ölkəmiz böyük uğurla III MDB Oyunlarına ev sahibliyi etdi. Prezident İlham Əliyev beynəlxalq səviyyəli yarışların ölkəmizdə keçirilməsinin önəminə diqqət çəkərək bildirib: “Əlbəttə, ölkəmizdə keçirilən idman yarışları idman növlərini populyarlaşdırır. Bizim təcrübəmiz də böyükdür, çox böyük beynəlxalq yarışlar keçirmişik, həm Avropa Oyunlarını, həm İslam Həmrəyliyi Oyunlarını. Bunlar demək olar ki, Yay Olimpiya Oyunlarının səviyyəsinə çox yaxındır. Keçən il MDB Oyunlarını özü də paytaxtda yox, bölgələrdə keçirmişik. Yəni bu onu göstərir ki, çox güclü potensial var və idmana, idmançılara qayğı dövlət siyasətidir. Əminəm ki, idmançılar da bunu görür və hiss edirlər”.

**Ləyaqətli davranışı qorumaq həmişə vacibdir**

İdman bir mübarizədir, kim güclüdürsə, o da qalib gəlir. Məşqlərdə Azərbaycan idmançılarına hər zaman bu prinsiplər aşılanır. Onlar da xalça üzərində, yaşıl meydanlarda daim xalqımızın ləyaqətli mübarizə ənənələrinə sadiq qalırlar. İdmançılarımız həmçinin cəmiyyətdə özlərini nümunəvi aparırlar, yekəxanalıq etmirlər.

Ancaq təəssüf doğuran haldır ki, beynəlxalq yarışlarda biz bir sıra hallarda idman qaydalarının pozulmasını, o cümlədən də hakimlərin Azərbaycan idmançılarına münasibətdə ədalətsiz qərarlar vermələrinin şahidi oluruq. Belə mənfi hallar nəticələrə təsir göstərir və məyusluq yaradır. “Hakim səhvləri və ya ədalətsizliklər baş verdikdə belə, ləyaqətli davranışı qorumaq həmişə vacibdir. Çünki bəzən qərəzlilik olur - biz bunu Azərbaycan idmançılarına qarşı təkcə güləşdə deyil, xüsusən də Avropa yarışlarında dəfələrlə görmüşük. Maraqlıdır, bir qayda olaraq Avropa yarışlarında Azərbaycan idmançılarına qarşı ədalətsizlik dünya çempionatlarına nisbətən daha çox olur. Yəqin ki, Avropada heç də hamı Azərbaycanın Avropa çempionatlarında iştirak etməsinə və təkcə iştirakına deyil, həm də bütün Avropa ölkələrinə qalib gəlməsinə sevinmir”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Milli mədəniyyətə qayğı siyasətində ardıcıllıq...

## Xalq rəssamı Lətif Kərimovun 120 illiyi qeyd olunacaq



Azərbaycanda mədəniyyətimizi zənginləşdirən yaradıcı insanlara həm cəmiyyətdə böyük hörmət bəslənilir, həm də onlara dövlət səviyyəsində hərtərəfli diqqət və qayğı göstərilir, dünyasını dəyişənlərin xatirələri əbədiləşdirilir. Mədəniyyət tariximizdə özünəməxsus iz qoyan belə yaradıcı insanlardan biri də Xalq rəssamı Lətif Kərimovdur. Bu günlərdə Prezident İlham Əliyev Lətif Kərimovun 120 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

2026-cı ilin noyabr ayında Azərbaycan təsviri sənətinin böyük ustası, görkəmli xalçaşünas, pedaqoq və sənətşünas alim, SSRİ Dövlət mükafatı laureatı, Xalq rəssamı Lətif Hüseyn oğlu Kərimovun 120 illiyi tamam olur. Sərəncama əsasən, Mədəniyyət Nazirliyi və Milli Elmlər Akademiyası Xalq rəssamı Lətif Kərimovun 120 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcək.

**Azərbaycan xalça sənətinin mahir bilicisi**

Dövlət başçısının imzaladığı bəhs olunan sərəncam bir daha təsdiqləyir ki, ölkəmizdə mədəniyyətə qayğı siyasəti davamlı səciyyə daşıyır.

Respublikamızda ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli mədəniyyətimizə qayğı siyasəti sonrakı mərhələdə eyni ardıcıllıqla davam etdirilir. Dövlət başçısı İlham Əliyev vaxtaşırı mədəniyyət xadimləri ilə görüşlər keçirir və milli mədəniyyətimizin narahatlıq doğuran məsələləri, perspektiv inkişafı üçün onlardan təkliflər alır. Qarşıya qoyulan əsas məqsədlərdən biri ondan ibarətdir ki, milli mədəniyyətimiz tarixilik ənənələrinə sadiq qalsın, eyni zamanda, müasir çağırışlara cavab versin və gənclərimizin mənəvi tələbatını ödəsin, onlarda yüksək vətənpərvərlik hissləri aşılasın.

Bu gün müxtəlif janrlarda yüksək peşəkarlıqla yaradılan mədəniyyət nümunələrimizin dünyanı fəth etməsi son dərəcə qürurverici haldır. Xalqımızın mədəni irsinin qorunmasının, dünya şöhrətli yeni mədəni irs nümunələrinin yaranmasının arxasında isə davamlı dövlət qayğısı dayanır. Son vaxtlarda respublikamızın əsas teatrları, muzeylərimiz yüksək səviyyədə təmir edilib. İncəsənət Muzeyinin iki binası və Xalça Muzeyi tikilib. Müasir İncəsənət Muzeyi fəaliyyətə başlayıb. Hazırda ölkəmizin bütün bölgələrində Tarix-Diyarşünaslıq muzeyləri yaradılıb. Bakıda milli mədəniyyətimizin ayrı-ayrı görkəmli simalarının abidələri ucaldılıb.

Azərbaycan mədəniyyətinin inkişafına və təbliğinə həmçinin Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu sanballı töhfələr verir. Ulu Öndərimizin adını daşıyan Fondun dəstəyi ilə indiyədək ölkə üzrə çoxsaylı mədəniyyət obyektləri, tarixi abidələr, muzeylər yüksək səviyyədə təmir olunaraq istifadəyə verilib. Fond milli mədəniyyətimizin xarici ölkələrdə təbliğində fəal iştirak edir.

**Dövrün məşhur xalça ustalarından biri**

Xalçaçılıq Azərbaycan mədəniyyətinin ən qədim və geniş yayılmış növlərindən biridir. Deyə bilərik ki, xalçaçılıq ta qədim zamanlardan xalqımızın məişətinin, həyat tərzinin bir hissəsi olub.

Nəfis toxunmuş xalçalar Azərbaycanın şöhrət simvollarından biridir. Son dərəcə gözəl xalça nümunələrimiz Sankt-Peterburqda Ermitaj, Londonda Viktoriya və Albert, Vaşinqtonda Tekstil, Parisdə Luvr, İstanbulda Topqapı kimi dünyanın böyük muzeylərini bəzəyir.

Bu gün respublikamızda xalçaçılıq özünün yeni inkişaf dövrünü yaşayır. Bakıda Prezident İlham Əliyevin sərəncamı ilə orijinal memarlıq üslubunda Xalça Muzeyi binasının tikilməsi bu nadir və gözəl sənət növünə dövlətimizin qayğısının əyani göstəricisidir. Eyni zamanda, Azərbaycan mədəniyyətinin böyük hamisi kimi tanınan Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Azərbaycan xalçaçılıq sənətinin inkişafında və dünyada tanıdılmasında mühüm rol oynayır. Məhz bunun nəticəsidir ki, 2010-cu ilin 15-19 noyabr tarixində Keniyanın Nayrobi şəhərində keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 5-ci sessiyasında Azərbaycan xalçaçılıq sənəti bu mötəbər qurumun Ümumdünya Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına daxil edilib.

Təbii ki, xalçaçılıq sənətinin yüksək inkişaf səviyyəsinə çatmasında ayrı-ayrı sənət adamlarının, mütəxəssislərin böyük rolu olub. Lətif Kərimov da onların sırasında yer alır. Sərəncamda vurğulandığı kimi, dünya mədəni irs xəzinəsində şərəfli mövqeyə malik Azərbaycan xalça mədəniyyətinin hazırkı inkişaf səviyyəsinə yüksəlməsində Lətif



Kərimovun təqdirəlayiq xidmətləri vardır. Onun eskizləri əsasında toxunmuş xeyli sayda süjetli, portret xalçalar və monumental xalılar milli xalçaçılığın parlaq ənənələrini özündə yaşadan misilsiz sənət nümunələridir. Fitri istedadla yaradılan və naxışlarının ifadəliliyi, bitkin üslubu ilə seçilən dərin koloritli əsərləri sənətkara dövrün məşhur xalça ustalarından biri olaraq xüsusi şöhrət qazandırıb. “Lətif Kərimov Azərbaycan xalçalarının ornamental, kompozisiya xüsusiyyətlərini müəyyənləşdirmiş və mükəmməl sistemli təsnifatını işləyib hazırlamışdır. Xalça sənətinin beynəlxalq miqyasda mahir bilicisi kimi tanınmış alimin bu istiqamətdə apardığı fundamental tədqiqatlar indi də ən çox istinad olunan mötəbər mənbələrdəndir”, - deyə sərəncamda vurğulanıb.

*Mübariz ABDULLAYEV*

# Parlamentin iclasında...
# Milli Məclis Avropa Parlamenti ilə əməkdaşlığı dayandırıb




Mayın 1-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 8 məsələ daxil edilib.

Əvvəlcə spiker Sahibə Qafarova çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən xarici siyasət dövlətimizi beynəlxalq birliyin nüfuzlu bir üzvünə çevirib: “Biz xarici siyasətimizdə dövlətlərin ərazi bütövlüyünə, suverenliyinə hörmət, daxili işlərinə qarışmama prinsiplərini rəhbər tutur, beynəlxalq qurumlarla konstruktiv iş birliyini inkişaf etdiririk”. Onun sözlərinə görə, bu baxımdan Azərbaycan Avropa Parlamenti ilə əməkdaşlıq mexanizmlərini həmişə konstruktiv dialoq platforması kimi nəzərdən keçirib. Azərbaycan Avropanın etibarlı tərəfdaşıdır, qitənin enerji təhlükəsizliyinə böyük töhfə verir. Strateji infrastruktur layihələrin reallaşdırılması, nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi yolunda atılan addımlar, regional sabitliyin təmin edilməsində fəal iştirak ölkəmizin beynəlxalq münasibətlər sistemində məsuliyyətli və konstruktiv rol oynadığını təsdiq edir.

## S.Qafarova: Vətən müharibəsindən sonra təşkilat ölkəmizə qarşı 13 qətnamə qəbul edib

Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin möhkəm təmələ əsaslandığını və zəngin potensiala malik olduğunu diqqətə çatdıran Milli Məclisin sədri təəssüflə qeyd edib ki, ölkəmizdə və regionumuzda baş verən proseslərə Avropa Parlamentinin yanaşmalarında mövcud olan problemlər böyük narazılıq və narahatlıq doğurur: “Bu proses uzun illərdir ki, davam edir. Avropa Parlamentinin ölkəmizlə bağlı qəbul etdiyi qətnamələr birtərəfli və qərəzli xarakter daşıyır, ikili standartlara əsaslanır. Bu sənədlər real vəziyyəti əks etdirmir və çox vaxt Azərbaycanın qanuni maraqlarının pozulmasına yönəlib. Görünən budur ki, Avropa Parlamentinin bu fəaliyyəti sistemli xarakter daşıyır. Avropa demokratiyasını təmsil etmək iddiasında olan bu qurumun Azərbaycana qarşı fəaliyyətlə məşğul olan lobbi qruplarının və müxtəlif maraq dairələrinin əlində alətə çevrilməsi təəssüf doğurur”.

S.Qafarova xatırladıb ki, bir neçə il bundan əvvəl Azərbaycanın Avropa Parlamenti ilə münasibətlərində böhran ciddi siyasi qərarların qəbul edilməsi ilə nəticələnmişdi. 2015-ci ildə Azərbaycan parlamenti Avropa Parlamentində Azərbaycan barəsində sistemli və davamlı şəkildə aparılan qarayaxma kampaniyasına cavab olaraq bu təşkilatla qarşılıqlı əlaqəni dayandırmağa məcbur olmuşdu. Milli Məclis Avropa Parlamentindən tələb etmişdi ki, Azərbaycana münasibətdə obyektiv mövqe tutsun və bu yanaşmanı real addımlarla nümayiş etdirsin. Bu qərar qəbul edildikdən sonra Avropa Parlamenti ikitərəfli dialoqu bərpa etmək məqsədi ilə bir sıra addımlar atıb, o cümlədən öz deputatlarından ibarət səlahiyyətli nümayəndə heyətini Azərbaycana göndərmişdi. Avropa Parlamentinin bu səylərindən sonra Milli Məclis əməkdaşlıq maraqlarını əsas tutaraq 2016-cı ilin sentyabr ayında münasibətlərin bərpasına dair qərar qəbul etmişdi.

Spiker təəssüflə qeyd edib ki, ötən 10 il Avropa Parlamentinin Azərbaycan əleyhinə hərəkətlərdən əl çəkmək niyyətində olmadığını göstərib: “İkinci Qarabağ müharibəsindən sonra təşkilatın fəaliyyətində anti-Azərbaycan ritorikası daha da güclənib. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın 30 illik işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi Avropa Parlamentinin Azərbaycana qarşı təxribatlarının intensivliyinin artmasına gətirib çıxardı. Təsadüfi deyil ki, 2021-ci ildən bəri Avropa Parlamenti müxtəlif bəhanələr altında Azərbaycana qarşı 13 qətnamə qəbul edib. Bütün bunlar həmin qurumun əslində hansı meyarlar əsasında fəaliyyət göstərdiyinin əsas sübutu sayıla bilər”. Şübhə yoxdur ki, Avropa Parlamentinin Azərbaycan əleyhinə məqsədyönlü fəaliyyəti ikitərəfli münasibətlərdə etimad mühitini pozub, eyni zamanda, konstruktiv dialoq və əməkdaşlıq perspektivlərinə sarsıdıcı zərbə vurub. Bu da aydındır ki, təşkilatın nümayiş etdirdiyi yanaşma regionda sülh və sabitlik yaradılmasına yönələn səylərə maneçilik törətməyə yönəlib”. S.Qafarova Milli Məclisin Avropa Parlamentinin dövlətimizə qarşı qərəzli fəaliyyətinə səssiz qalmayacağını diqqətə çatdırıb.

Məsələ ilə bağlı çıxış edən millət vəkilləri də Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli mövqeyini pisləyib və bu təşkilatla əməkdaşlığın dayandırılmasını təklif ediblər.

## Təşkilat Ermənistanın 30 illik işğalına səssiz qalıb

Müzakirələrdən sonra Milli Məclis Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti ilə əlaqədar qərar qəbul edib. Qərarda bildirilib ki, Milli Məclis xarici ölkə parlamentləri və beynəlxalq parlament təşkilatları ilə əlaqələrində sülh, təhlükəsizlik və davamlı inkişaf naminə birgə fəaliyyəti rəhbər tutur, parlament dəyərlərinə və ortaq maraqlara əsaslanan açıq, səmimi və konstruktiv dialoqu təşviq edir: “Təəssüflər olsun ki, Avropa Parlamentinin qeyd olunan prinsipləri inkar edən destruktiv mövqeyi bu qurumla ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişafı qarşısında başlıca maneəyə çevrilib. Avropa Parlamentinin fəaliyyətinin mahiyyətində beynəlxalq hüququn norma və prinsiplərinin, ədalət anlayışının qəti surətdə rədd edilməsi dayanır. Bu qurum torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına, yüzlərlə şəhər və kəndlərimizin, tarixi, dini və mədəni abidələrimizin dağıdılmasına, etnik təmizləməyə, 1 milyondan çox qaçqın və məcburi köçkünün insan hüquqlarına davamlı şəkildə etinasız yanaşıb. Avropa Parlamenti ilə əməkdaşlıq üçün nəzərdə tutulmuş platformalar - Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlıq Komitəsi və Avronest Parlament Assambleyası isə ölkəmizə qarşı təzyiq, şantaj və daxili işlərə kobud müdaxilə alətinə çevrilib”.

Qeyd olunub ki, Azərbaycanın Milli Məclisi Avropa Parlamentinin bu münasibəti səbəbindən onunla bütün əlaqələrini 2015-ci ildə dayandırsa da, qarşı tərəfin çoxsaylı müraciətlərini və vədlərini əsas götürərək, əməkdaşlığı yenidən bərpa edib. Buna baxmayaraq, Avropa Parlamenti öz vədlərinə əməl etməyib, özünün anti-Azərbaycan siyasətini, böhtan və qarayaxma fəaliyyətini ardıcıl surətdə davam etdirib. “Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğalına son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra isə Avropa Parlamentinin bu fəaliyyəti daha geniş vüsət alıb. Prezident İlham Əliyevin müəyyən etdiyi sülh gündəliyinin onun siyasi iradəsi və qətiyyəti sayəsində uğurla reallaşdırılması və tarixi Vaşinqton razılaşmaları ilə nəticələnməsi, dövlət başçısının sülhə, əməkdaşlığa və tərəqqiyə xidmət edən təşəbbüslərinin beynəlxalq səviyyədə dəstək qazanması bu qurumun anti-Azərbaycan ritorikasını daha da gücləndirib”, - deyə qərarda vurğulanıb.

Diqqətə çatdırılıb ki, bu gün demokratik dəyərlərin iflasa uğradığı, korrupsiya və rüşvətxorluğun dərin kök saldığı, lobbi qruplarına və müxtəlif maraq dairələrinə xidmət edən Avropa Parlamenti Azərbaycanofob və islamofob düşüncənin ardıcıl surətdə ifadə olunduğu struktura çevrilib. Əsas narahatlıq doğuran məqamlardan biri də budur ki, bu qurum yalnız Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafına maneə törətmir. Təşkilat həm də regionumuzda uzunmüddətli sülh və sabitliyin bərqərar edilməsi istiqamətində atılan addımlara qarşı çıxır, revanşist qüvvələri təhrik etməklə regionumuzu yenidən münaqişə ocağına çevirməyə cəhd göstərir. Bütün bunlar isə Avropa Parlamenti ilə əməkdaşlığın mahiyyətini heçə endirir.

## Deputatlar Avronest PA-nın tədbirlərinə qatılmayacaq

Bütün bunları nəzərə alaraq, Milli Məclis Azərbaycan Konstitusiyasının 95-ci maddəsinin III hissəsini rəhbər tutaraq Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlıq əlaqələrinin dayandırılmasını qərara alıb. Eyni zamanda, bu qərarla Milli Məclisin Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin fəaliyyətində iştirakına da son qoyulur. Qərarda, həmçinin vurğulanıb ki, Avronest Parlament Assambleyasının Nizamnaməsinə uyğun olaraq, Azərbaycan Milli Məclisinin bu təşkilatda üzvlüyünə xitam verilməsi barədə prosedur qaydalarının icrasına başlanılsın və prosedur dövründə Milli Məclisin nümayəndə heyəti Avronest Parlament Assambleyasının tədbirlərinə qatılmasın.

Qeyd edək ki, millət vəkilləri iclasın gündəliyində olan qanun layihələrini də müzakirə ediblər. Əvvəlcə “Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 1993-cü il 22 yanvar tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol” təsdiqlənib. Deputatlar eyni zamanda, “Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 2002-ci il 7 oktyabr tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol”u da qəbul ediblər.

Hər iki məsələyə edilən dəyişikliklərin əsas mahiyyətini mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım haqqında konvensiyalara yetkinlik yaşına çatmayan uşaqlar üçün alimentlə bağlı məhkəmə qərarlarının tanınması və icrası mexanizmi ilə bağlı məsələlər təşkil edir. Beləliklə, bu yeniliklər dövlətlər arasında hüquqi əməkdaşlığı gücləndirəcək, xüsusilə də uşaqların maddi təminatı ilə bağlı qərarların digər ölkələrdə daha asan və effektiv icrasına imkan yaradacaq.

Sonra iclasın gündəliyində olan digər qanun layihələri də qəbul olunub.

*Nardar BAYRAMLI*

# Azərbaycan qlobal iqlim çağırışlarına qarşı birgə mübarizənin fəal iştirakçısıdır



Azərbaycan hazırda dünyanın ən aktual çağırışlarından biri olan iqlim dəyişmələrinə həssas yanaşma sərgiləyən ölkələr sırasında yer alır. Təsadüfi deyildir ki, ölkəmizdə yeni strateji mərhələ üçün müəyyənləşdirilən 5 mühüm prioritetdən biri “təmiz ətraf mühit” və “yaşıl artım” prioritetidir.

Bu sahədə qarşıya qoyulan hədəflərə çatmaq üçün ardıcıl tədbirlər görülür. Bu günlərdə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının növbəti iclası keçirilib. İclası Baş nazirin müavini, Dövlət Komissiyasının sədri Samir Şərifov açıb. Tədbirdə respublikamızda müvafiq sahədə həyata keçirilən dövlət siyasətinin əhatə dairəsinin kifayət qədər geniş olduğuna diqqət çəkilib və aidiyyatı qurumların təmsilçiləri görülən işlər barədə ətraflı məlumat veriblər.

## İqlim dəyişmələrinin təsirlərinin minimuma endirilməsi istiqamətində ardıcıl siyasət

İclasda Samir Şərifov respublikamızın qlobal iqlim çağırışlarına qarşı birgə mübarizənin fəal iştirakçısı olduğuna xüsusi vurğu edib. Azərbaycan iqlim dəyişiklikləri ilə bağlı qlobal çağırışları hər zaman dəstəkləyib və buna öz töhfələrini verib. Respublikamız 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (UNFCCC) təsdiqləyib. Ölkəmiz Milli Məclisin 18 iyul 2000-ci il tarixli Qərarı ilə Kioto Protokoluna qoşulub. Azərbaycan həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşmasını imzalayıb. Azərbaycandan Konvensiya üzrə hesabat öhdəliklərinin bir hissəsi kimi mütəmadi olaraq iqlim dəyişmələri ilə bağlı əsas məsələlər və həll yollarını tərtib etməklə Milli Məlumat hazırlayır və müvafiq qaydada təqdim edir. Sözügedən hesabatların hazırlanmasında sahələr üzrə məlumatların toplanması və ümumiləşdirilməsi məqsədi ilə hər bir müvafiq sektoru təmsil edən dövlət qurumlarının nümayəndələrindən ibarət İşçi qrupu yaradılıb.

Həmçinin Azərbaycanın müəyyənləşdirdiyi hədəflər və fəaliyyət istiqamətləri də qlobal iqlim dəyişmələri çağırışlarına adekvatlıq təşkil edir. Samir Şərifov bildirib ki, ölkə sonrakı dövrdə Paris Sazişi çərçivəsində götürdüyü öhdəliklərə sadiq qalaraq, istixana qazı emissiyalarının azaldılması istiqamətində daha iddialı məqsədlər müəyyənləşdirib və üçüncü Milli Müəyyən Edilmiş Töhfə (NDC) sənədində 1990-cı il ilə müqayisədə 2035-ci ilədək emissiyaların 40 faiz azaldılmasını əsas prioritet kimi təsbit edib. Bu yanaşma Azərbaycanın aşağı karbonlu inkişaf modelinə keçid və iqlim dəyişmələrinin təsirlərinin minimuma endirilməsi istiqamətində ardıcıl siyasət apardığını nümayiş etdirir.

Qeyd edək ki, ölkəmizdə iqlim çağırışları ilə bağlı görülən tədbirlər beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Azərbaycan Dövlət Neft Şirkəti 2008-ci ildən GGFR-in rəhbər komitəsinin üzvüdür. Respublikamızda həyata keçirilən layihələr nəticəsində il ərzində atmosferə atılan 1 milyard kubmetr qaz yığılaraq əhalinin istifadəsinə yönəldilib. SOCAR tərəfindən səmt qazının azaldılması tədbirləri Dünya Bankının Ekspert Şurası tərəfindən bir neçə dəfə ali mükafata layiq görülüb. Hazırda neft hasilatı zamanı səmt qazının emissiyası göstəricilərinin aşağı olmasına görə Avropa İttifaqına neft ixrac edən əsas 10 ölkə arasında Azərbaycan birinci yeri tutur.

Komissiyanın iclasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən “İqlim haqqında” Azərbaycan Respublikasının Qanun layihəsi, habelə “Uzunmüddətli Aşağı Karbonlu İnkişaf Strategiyası”nın layihəsi barədə, İqtisadiyyat Nazirliyi tərəfindən isə Avropa İttifaqının Karbon Sərhəd Tənzimləmə Mexanizmi (CBAM) və onun mümkün iqtisadi təsirləri barədə təqdimatlar edilib və həmin təqdimatların ətrafında müzakirələr aparılıb.

Dövlət Komissiyasının iclasında çıxış edən Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev bildirib ki, ölkənin Uzunmüddətli Aşağı Karbonlu İnkişaf Strategiyası layihəsinin (LTS) yekunlaşdırılması və qısa müddətdə təsdiqə təqdim olunması vacibdir. O, öz çıxışında vurğulayıb ki, Avropa İttifaqının Sərhəddə Karbon Tənzimlənməsi Mexanizmi idxal olunan məhsullar üzrə karbon intensivliyinin nəzərə alınması ilə rəqabət şəraitinin bərabərləşdirilməsi nəzərdə tutulur. Bu baxımdan, milli iqlim siyasətinin gücləndirilməsi ölkənin ixrac potensialının qorunması və sənayenin modernizasiyası üçün mühüm əhəmiyyət daşıyır.

## Ölkəmizin ev sahibliyi ilə keçirilən COP29 tarixi qərarlarla yadda qalıb

COP29-un Azərbaycanın ev sahibliyi ilə keçirilməsi ölkəmizin qlobal iqlim dəyişmələrinə həssas yanaşmasının və beynəlxalq həmrəyliyin güclənməsinə davamlı töhfələr verməsinin daha bir təsdiqinə çevrildi. İlk növbədə onu qeyd edək ki, Azərbaycan ən nümunəvi COP-lardan birini təşkil etməyə nail olub. Respublikamızın COP29-a hazırlaşmaq üçün cəmi 1 il vaxtı var idi. Məsuliyyətli dövlət olan Azərbaycan tədbirə yüksək səviyyədə hazırlıqlar gördü və uğurla keçən tədbir ölkəmizin liderlik keyfiyyətlərini bir daha dünyanın diqqətinə çatdırdı. Tədbirdə iştirak etmək üçün 76 mindən çox iştirakçı qeydiyyatdan keçib, həmçinin 80 dövlət və hökumət başçısı Bakıya təşrif gətirib. İştirakçıların böyük hissəsi, yəni 57 min 160 nəfər əcnəbilər olublar. COP29 çərçivəsində Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti təşkil olunub.

İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının iclasında qeyd olunub ki, 2024-cü il noyabrın 11-22-də Bakıda böyük uğurla keçirilmiş COP29 konfransı həllini gözləyən bir çox məsələ üzrə mühüm və tarixi qərarlarla yadda qalıb. Azərbaycanın müsbət reallıqları, həmçinin dövlətin qətiyyətli siyasi iradəsi COP29-da substantiv nəticələrin əldə olunmasına güclü şəkildə təsir göstərib. Bildirildiyi kimi, məhz Bakıda inkişaf etməkdə olan ölkələrin əsas gözləntisi - “Yeni Kollektiv Kəmiyyət Hədəfi” üzrə konsensusun əldə olunmasına nail olunub. Bakıda qəbul edilən qərara əsasən, 2035-ci ilə qədər bütün dövlət və özəl mənbələrdən inkişaf etməkdə olan ölkələrə yönəldilən iqlim maliyyəsinin illik hədəfi 1,3 trilyon ABŞ dolları səviyyəsində müəyyən edilib. Eləcə də İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması böyük nailiyyətdir.

İclasın yekununda Dövlət Komissiyasının sədri Samir Şərifov tərəfindən qarşıdan gələn BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasına hazırlıqla bağlı tədbirlər planının hazırlanaraq qısa müddətdə Komissiyaya təqdim olunması, eləcə də Avropa İttifaqının Sərhəddə Karbon Tənzimlənməsi Mexanizmi, “İqlim haqqında” Azərbaycan Respublikasının Qanunu və “Uzunmüddətli Aşağı Karbonlu İnkişaf Strategiyası” layihələrinin təkmilləşdirilməsi məqsədilə Qurumlararası İşçi Qrupunun yaradılması barədə qərarlar qəbul edilib.

*Mübariz FEYİZLİ*

# Əbədiyyətə qovuşan ömrün 103-cü baharı













Mayın 1-də Yeni Azərbaycan Partiyasının (YAP) və Kənd Təsərrüfatı Nazirliyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Əbədiyyətə qovuşan ömrün 103-cü baharı" adlı tədbir keçirilib.

Əvvəlcə Kənd Təsərrüfatı Nazirliyinin inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, Ulu Öndər Heydər Əliyevin ömrü Azərbaycanın dövlət müstəqilliyi və yüksəlişi ilə eyniləşən əbədi bir yoldur: "Bu yolun hər bir mərhələsi xalqımızın rifahına, ölkəmizin qüdrətlənməsinə xidmət edib. Hələ müstəqillikdən öncəki illərdə Azərbaycana rəhbərlik edərkən Heydər Əliyev ölkə iqtisadiyyatının onurğa sütunu sayılan kənd təsərrüfatının inkişafını hər zaman prioritet elan etmişdi. O, torpağı xalqın ən böyük sərvəti hesab edirdi. Dahi rəhbərin uzaqgörənliyi sayəsində ötən əsrin 70-80-ci illərində Azərbaycan aqrar sektorda rekord göstəricilərə imza atıb, kəndlərimiz müasirləşib, kəndli əməyi şərəfli bir sahəyə çevrilib. 1969-cu ildə ölkədə cəmi 300 min ton pambıq yığıldığı halda, Heydər Əliyevin planlaması və təşkilatçılığı sayəsində 1981-ci ildə bu rəqəm rekord həddə - 1 milyon tona çatdırılıb. Bu, Azərbaycanın iqtisadi potensialını dünyaya nümayiş etdirən pambıqçılığın intibahı idi. Onun təşəbbüsü ilə Azərbaycanda irimiqyaslı üzüm bağları qurulub. Beləliklə, illik üzüm istehsalı 2 milyon tona çatıb, yüzlərlə yeni müəssisə qurulub. Bu sahə minlərlə Azərbaycan ailəsinin rifahını yüksəldib".

Məcnun Məmmədovun sözlərinə görə, Ümummilli Liderin tapşırıqları ilə ölkəmizin suvarma sistemlərinin böyük əksəriyyəti həmin illərdə inşa edilib: "Yuxarı Qarabağ və Yuxarı Şirvan kanallarının inkişafı, su anbarlarının inşası minlərlə hektar quru torpağı bərəkətli sahələrə çevirib. Müstəqilliyimizin ilk ağır illərində də məhz Onun cəsarəti və strateji zəkası ilə həyata keçirilən aqrar islahatlar Azərbaycan fermerini yeni bir dövrə hazırladı. 1996-cı ildə qəbul edilən tarixi "Torpaq islahatı haqqında" Qanun kəndlərdə mülkiyyət münasibətlərini kökündən dəyişdi və fermerlər üçün azad sahibkarlığın təməlini qoydu".

Nazir əlavə edib ki, dövlət mülkiyyətində olan torpaqların vətəndaşların şəxsi mülkiyyətinə verilməsini nəzərdə tutan bu islahatlarla yeni yaranmış müstəqil respublikanın iqtisadi təhlükəsizliyinin, ərzaq və qida təhlükəsizliyinin əsasları formalaşdırılıb.

"Bu gün Ümummilli Liderin siyasi kursu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Böyük rəhbərin müəyyən etdiyi strateji xətt bu gün Prezident İlham Əliyevin yürütdüyü aqrar siyasət nəticəsində ölkəmizi kənd təsərrüfatı sahəsində innovasiyaların, "yaşıl iqtisadiyyat"ın və "ağıllı kənd" konsepsiyalarının tətbiq olunduğu məkana çevirib. Məcnun Məmmmədov vurğulayıb ki, işğaldan azad edilmiş və "Yaşıl Enerji Zonası" elan olunmuş Qarabağ və Şərqi Zəngəzurun münbit torpaqlarının yenidən əkin dövriyyəsinə qaytarılması Ulu Öndərimizin ruhunu şad edən ən böyük tarixi hadisələrdəndir. Bu gün biz o torpaqlarda Heydər Əliyevin arzuladığı müasir aqrar-sənaye komplekslərini qurur, Onun "Azərbaycanın gələcəyi kənd təsərrüfatının inkişafından asılıdır" tezisini rəhbər tutaraq yeni nailiyyətlərə imza atırıq. Heydər Əliyevin ömrü bizim üçün həm də bir vətənpərvərlik məktəbidir. Biz bu gün kənd təsərrüfatının daha da inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması üçün çalışan fermerlərimizlə, aqrar sahədə ixtisaslamış şirkət nümayəndələri ilə birgə Ümummillli Lider Heydər Əliyevin şərəfli yoluna nəzər salmaq üçün bir araya gəlmişik. Burada keçirilən tədbir - aqrar sahədə çalışan bizlər üçün Ümummilli Liderin ruhu qarşısında bir hesabatdır. Bu gün ölkəmizin kənd təsərrüfatında əldə olunan nailiyyətlər, uğurlu nəticələrdə siz tədbir iştirakçılarının, fermerlərimizin böyük payı var", - deyə nazir vurğulayıb.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, bu gün Azərbaycan xalqı dahi şəxsiyyət, müdrik dövlət xadimi Heydər Əliyevin əziz xatirəsini dərin ehtiram və sonsuz minnətdarlıq hissi ilə yad edir: "Ulu Öndər bütün mənalı ömrünü Vətənin tərəqqisinə həsr etmiş, müstəqilliyimizin qorunması, milli dövlətçiliyimizin möhkəmləndirilməsi və xalqımızın parlaq gələcəyi naminə məqsədyönlü fəaliyyəti ilə millətimizə misilsiz nailiyyətlər qazandırmışdır".

Tahir Budaqov bildirib ki, Ümummilli Liderin uzaqgörən siyasəti bütün sahələrin, o cümlədən strateji əhəmiyyətə malik aqrar sektorun davamlı inkişafını təmin etmişdir: "Ulu Öndər hər zaman vurğulayırdı ki, kənd təsərrüfatı iqtisadi təhlükəsizliyin, əhalinin rifahının və regionların inkişafının əsas sütunlarından biridir. Heydər Əliyevin SSRİ dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə aqrar sektorda qazanılan uğurlar respublikanın sosial-iqtisadi inkişafına güclü təkan vermişdir. Kənd təsərrüfatı məhsulları istehsalı artırılmış, pambıqçılıq, üzümçülük, tərəvəzçilik, çayçılıq və heyvandarlıq sahələrində mühüm irəliləyiş əldə olunmuş, meliorasiya və irriqasiya sistemləri genişləndirilmiş, yeni suvarma kanalları çəkilmiş, torpaq fondundan səmərəli istifadə nəticəsində məhsuldarlıq əhəmiyyətli dərəcədə yüksəlmişdir. Müstəqillik dövründə isə bazar iqtisadiyyatına keçid şəraitində torpaq islahatlarının aparılması, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və digər mühüm addımlar ölkəmizin iqtisadi potensialının artmasına və dayanıqlı inkişafına möhkəm zəmin yaratmışdır".

YAP Sədrinin müavini vurğulayıb ki, Ulu Öndərin tükənməz dövlətçilik irsi Azərbaycanın bütün uğurlarının möhkəm təməlini təşkil edir: "Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi nailiyyətlər və şanlı Zəfər xalqımızın iradəsini, dövlətimizin isə qüdrətini bütün dünyaya nümayiş etdirmişdir. Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası da müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr vermişdir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə öz fəaliyyətini dövrün çağırışlarına uyğun müvəffəqiyyətlə davam etdirən Yeni Azərbaycan Partiyası ictimai-siyasi sabitliyin və milli birliyin qorunması, Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdışın uğurla həyata keçirilməsi və nəhayət, bölgədə sülh və təhlükəsizliyin bərqərar olması istiqamətində üzərinə düşən bütün vəzifələri yerinə yetirmək əzmindədir".

Tahir Budaqovun sözlərinə görə, kənd təsərrüfatı daim yenilənən və qlobal dəyişikliklərə uyğunlaşan bir sahədir: "Ölkəmizdə həyata keçirilən tədbirlər, xüsusilə də innovativ texnologiyaların tətbiqi ərzaq təhlükəsizliyinin təmini, yerli istehsalın artırılması, ixrac potensialının genişləndirilməsi və su ehtiyatlarının səmərəli istifadə olunması baxımından mühüm əhəmiyyətə malik olmaqla aqrar sektorun inkişafına təkan verir. Kənd təsərrüfatı yalnız iqtisadi fəaliyyət sahəsi deyil, eyni zamanda, milli təhlükəsizliyin önəmli dayaqlarından biridir. Bu səbəbdən yeni dövrün çağırışları fonunda, xüsusilə də aqrar sektorun inkişaf etdirilməsi üçün böyük potensiala malik olan işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi sahəsində sizin üzərinizə böyük məsuliyyət düşür. Şübhə yoxdur ki, Heydər Əliyev ideyalarına sadiq qalaraq bundan sonra da qarşıda duran bütün vəzifələri uğurla yerinə yetirəcək və ölkəmizin inkişafına töhfələr verəcəksiniz. Hər birinizə xalqımızın rifahı və müstəqil Azərbaycanın parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram".

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev çıxışında bildirib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə respublikamızda sosial-iqtisadi sahədə davamlı inkişafa nail olunub: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir", - deyən Ulu Öndər ölkə iqtisadiyyatının dirçəldilməsi üçün məqsədyönlü siyasət həyata keçirib. Ullu Öndərin hələ SSRİ dönəmində ölkəmizə rəhbərlik etdiyi illərdə iqtisadiyyat, mədəniyyət, elm, təhsil sürətlə inkişaf edib, respublikamız qısa zamanda keçmiş ittifaqın ən qabaqcıl respublikaları sırasına çıxıb. Sözsüz ki, bu xidmətlər xalqımız tərəfindən əsrlər boyu xatırlanacaqdır".

Tahir Rzayev qeyd edib ki, Ulu Öndər Heydər Əliyev müstəqillik illərində xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi dövrdə Azərbaycanı parçalanmaqdan, qarşıdurmalardan, vətəndaş müharibəsindən xilas etdi: "O, islahatçı bir rəhbər idi. İstər SSRİ dövründə, istərsə də sonrakı dönəmdə Heydər Əliyevin həyata keçirdiyi islahatlar, aqrar sahədə yeni qanunların qəbul olunması, torpaq islahatının aparılması göstərdi ki, Ulu Öndər nəinki yaşadığı dövrün problemlərini dərindən bilir, eləcə də Onun baxışları yüzillikləri qarşılayır. Nəticə etibarilə, Azərbaycan sosial-iqtisadi cəhətdən davamlı inkişaf edir. Müasir dövrdə isə ölkəmiz Prezident İlham Əliyevin zəngin siyasi təcrübəsi, möhkəm iradəsi və qətiyyətli liderliyi ilə dinamik inkişaf yolunda irəliləyir".

Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinin müdiri Lətif Qasımov çıxışında bildirib ki, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və iqtisadi əsaslarının formalaşmasında müstəsna xidmətlər göstərmiş Ulu Öndərin fəaliyyəti bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da köklü dönüş yaradıb. Onun sözlərinə görə, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə kənd təsərrüfatı, sadəcə iqtisadi sahə kimi deyil, milli təhlükəsizlik və sosial rifahın əsas dayaqlarından biri kimi qiymətləndirilib: "Məhz bu strateji baxış sayəsində 1969-cu ildən etibarən aqrar sahədə köklü transformasiya prosesinə start verilib".

L.Qasımov qeyd edib ki, həmin dövrdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində kənd təsərrüfatında elmi yanaşma gücləndirilib, məhsuldarlığın artırılması üçün innovativ üsullar tətbiq edilib, regionların ixtisaslaşması və resurslardan səmərəli istifadə təmin edilib: "Nəticədə 1970-1980-ci illərdə aqrar istehsalda çoxşaxəli artım müşahidə edilib, iqtisadi səmərəlilik əhəmiyyətli dərəcədə yüksəlib. Bu, yalnız statistik göstəricilərdə deyil, kənd əhalisinin həyat səviyyəsində də real əksini tapıb".

Natiq diqqətə çatdırıb ki, 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində baş verən böhran aqrar sahədən də yan keçməyib, istehsalın azalması və idarəetmədə qeyri-sabitlik müşahidə olunub: "Belə mürəkkəb şəraitdə Ulu Öndərin hakimiyyətə qayıdışı ilə kənd təsərrüfatında yeni inkişaf mərhələsinin əsası qoyulub. 1995-1996-cı illərdə qəbul edilən fundamental qanunvericilik aktları kənd təsərrüfatında bazar münasibətlərinin formalaşmasına hüquqi əsas yaradıb, torpaq islahatı ilə mülkiyyət münasibətlərində köklü dəyişikliklər baş verib və sahibkarlığın inkişafına yeni imkanlar açılıb. "Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu strateji xətt yeni çağırışlara uyğun şəkildə modernləşdirilərək uğurla davam etdirilir. Aqrar sahədə tətbiq olunan innovativ yanaşmalar, rəqəmsallaşma və dövlət-özəl tərəfdaşlığı mexanizmləri kənd təsərrüfatını daha rəqabətli və dayanıqlı sektora çevirir. Hazırda aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi, "ağıllı kənd" konsepsiyası, innovativ suvarma sistemləri və aqroparkların yaradılması kənd təsərrüfatının keyfiyyətcə yeni mərhələyə keçidini təmin edir. Bu isə məhsuldarlığın artırılması ilə yanaşı, resurslardan daha səmərəli istifadə imkanları yaradır".

Çıxış edən siyasi və dövlət xadimi, diplomat, tarix elmləri doktoru Həsən Həsənov Ulu Öndər Heydər Əliyevin Azərbaycanın bu günü və gələcəyi ilə bağlı gördüyü işlərdən bəhs edərək vurğulayıb ki, Onun idarəçilik təcrübəsi, siyasi iradəsi, liderlik keyfiyyətləri hər bir çətinliyin öhdəsindən uğurla gəlməsini şərtləndirib.

H.Həsənov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin istər SSRİ dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dönəm dövlətçilik tariximizdə mühüm yer tutur: "Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanış dövrü oldu. O, 1969-cu ildə hakimiyyətə gələnə qədər Azərbaycan inkişaf baxımından keçmiş ittifaq respublikaları arasında sonuncu yerləri bölüşürdü. Lakin Heydər Əliyevin respublikamıza rəhbər seçilməsindən sonra qısa müddət ərzində Azərbaycan ön sıralara çıxdı".

Natiq diqqətə çatdırıb ki, Ulu Öndər daim xalqımızın rifahı üçün çalışıb. "Heydər Əliyev həm SSRİ dövründə, həm də müstəqillik illərində Azərbaycanı dünyaya tanıtdırdı. Bu gün də Heydər Əliyev yolu Azərbaycanın ardıcıl nailiyyətlərinin əsasını təşkil edir. Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir, ölkəmiz tarixi uğurlara imza atır", - deyə H.Həsənov qeyd edib.

Sonra partiya sıralarına yeni qəbul olunan gənclərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# “Yaşıl iqtisadiyyat” quruculuğuna töhfə

## Mərkəzi Bank NGS-yə tamhüquqlu üzv seçilib

Mərkəzi Bank (MB) Maliyyə Sisteminin Yaşıllaşdırılması üzrə Mərkəzi Banklar və Nəzarət Qurumları Şəbəkəsinə (NGFS) tamhüquqlu üzv kimi qəbul olunub. Üzvlük Azərbaycanın Mərkəzi Bankının qlobal şəbəkənin tamhüquqlu üzvü kimi işçi qruplarının fəaliyyətində iştirakına geniş imkanlar yaradacaq, iqlim maliyyəsi üzrə ssenarilərin hazırlanması və təhlili, “yaşıl maliyyə” layihələrində təmsil olunmasını təmin edəcək. Eyni zamanda, MB maliyyə sistemlərinin yaşıl seqmentləri üzrə pul siyasətlərinin həyata keçirilməsində fəal rol alacaq, prudensial nəzarət çərçivələrinə inteqrasiyası sahələrində kollektiv tədqiqatlarda iştirak etməklə, bu proseslərdən faydalanacaq.

Mərkəzi Bankın bu şəbəkəyə qoşulması onun dayanıqlı maliyyə gündəliyinin, o cümlədən “yaşıl taksonomiya”nın tətbiqi, “yaşıl istiqraz” bazarının formalaşdırılması və maliyyə sektorunda iqlim riskləri ilə bağlı açıqlamaların tətbiqinin dərinləşdirilməsini şərtləndirəcək. Mərkəzi Bankın Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsinin icrası istiqamətində əsas təşəbbüslərdən biri olan bu üzvlük həm də Azərbaycanın Paris İqlim Sazişi çərçivəsindəki milli öhdəlikləri və iqtisadiyyatın yaşıl, dayanıqlı inkişaf istiqamətində transformasiyası üzrə siyasəti ilə uzlaşır.




**“Yaşıl taksonomiya” - dayanıqlı maliyyə ekosisteminin yol xəritəsi**

Beynəlxalq miqyasda “yaşıl taksonomiya”lar maliyyə sistemini “yaşıllaşdırmaq” və maliyyə resurslarını dayanıqlı iqtisadi fəaliyyətlərə yönəltmək üçün olduqca vacib vasitədir. Beynəlxalq Kapital Bazarları Assosiasiyasının qiymətləndirmələrinə görə, “yaşıl taksonomiyalar” iqlim, ətraf mühit, sosial və ya dayanıqlı məqsədlərə töhfə verən fəaliyyətlər, aktivləri və layihələri birləşdirən unikal platformadır. Hazırda 53 ölkədə “yaşıl taksonomiya”lar mövcuddur. Azərbaycan hökuməti də bu maliyyə paltformasına xüsusi önəm verir və Mərkəzi Bank tərəfindən ötən il qəbul edilən “Yaşıl taksonomiya” sənədi mühüm hədəfləri özündə əks etdirir. “2023-2026-cı illər üzrə dair Dayanıqlı Maliyyə Yol Xəritəsi”ndə müəyyən edilmiş əsas hədəflərdən biri kimi nəzərdə tutulan maliyyə taksonomiyasının hazırlanmasında dövlət qurumları, sənaye assosiasiyaları, maliyyə institutları, investorlar, beynəlxalq təşkilatlar və digər tərəfdaşlar iştirak edib, onların rəy və təklifləri nəzərə alınıb. Sənəd maliyyə-bank, sığorta və digər iqtisadi sektorlar üzrə “yaşıl fəaliyyət”in istiqamətlərini əks etdirməklə bu sahələrdə texniki təsnifat meyarlarını müəyyənləşdirir. “Yaşıl taksonomiya” özəl sektorda biznes fəaliyyətlərinin yeni mühitə uyğun prinsiplərə uyğunlaşması, dünyada geniş vüsət alan “yaşıl iqtisadiyyat” və rəqəmsal quruculuğa dayanıqlı keçid strategiyalarının hazırlanması üçün də konsepsiya rolunu oynayır.

Taksonomiya ətraf mühit və dayanıqlıq məqsədlərə, eləcə də ölkənin sosial iqtisadi inkişafına töhfə verən əsas 10 sektoru (bərpa olunan enerji, enerji səmərəliliyi, su resurslarının dayanıqlı idarə edilməsi, çirklənmənin qarşısının alınması və çirklənməyə nəzarət, yaşıl nəqliyyat, dayanıqlı kənd təsərrüfatı, heyvandarlıq və akvakultura, biomüxtəlifliyin mühafizəsi, dairəvi iqtisadiyyat və tullantıların idarə olunması, yaşıl binalar və dayanıqlı tikinti və yaşıl xidmətlər) əhatə edir.

Taksonomiyanın əsas hədəf istifadəçiləri maliyyə bazarları iştirakçıları, yəni banklar və bank olmayan kredit təşkilatları, kredit ittifaqları, fond bazarının təmsilçiləri, sığorta bazarının peşəkar iştirakçıları, kredit büroları, ödəniş təşkilatları, elektron pul təşkilatları, ödəniş sistemləri operatorlarıdır. Yəni bu qurumların hər biri Mərkəzi Bankın nəzarəti çərçivəsində qeyd edilən 10 hədəfin hər biri üzrə fəal maliyyələşmədə yer almaqdadır.

**“Yaşıl istiqraz” və “yaşıl səhm”lərə keçid**

Taksonomiya baxışlarına əsasən, bank və maliyyə bazarının iştirakçıları dünyada tətbiq edilən “yaşıl maliyyə” alətlərinin ölkəmizdə tətbiqində səy və məsuliyyətlərini artıracaq. Yaxın illərdə bank sektoru fəaliyyətini daha çox “yaşıl maliyyə” təminatlarına yönəltmiş olacaq. “Yaşıl maliyyə” arxitekturasının qurulması isə böyük həcmdə sərmayələr tələb edir. Hazırda dünya bank sektoru bu vəsaitləri müxtəlif alətlərlə təmin etməyə çalışır. Həmin alətlərdən biri “yaşıl istiqrazlar”dır. Azərbaycanın bank sistemi üçün də bu istiqrazların emissiyası vacib hesab edilir və bunun üçün qabaqcıl beynəlxalq təcrübə hərtərəfli nəzərdən keçirilir. “Yaşıl istiqrazlar” maliyyə sektorunda davamlılığı təşviq etmək, iqlimlə əlaqəli və ya digər növ xüsusi ekoloji layihələri dəstəkləmək və sosial və ətraf muhitin yaxşılaşdırılmasına töhfə vermək baxımından daha cəlbedicidir.

“Yaşıl maliyyə” alətlərindən biri olan “yaşıl səhm”lər də ekoloji cəhətdən təmiz texnologiyaların genişləndirilməsi və iqlim dəyişikliyinin azaldılması istiqamətində emissiya edilən səmərəli maliyyə alətidir. Beynəlxalq Maliyyə Korporasiyasının hesabatında “yaşıl səhm”lərin son 4 ildə emissiyasının 230 milyard dolları ötdüyü qeyd olunur.

**Dünya Bankı və Asiya İnkişaf Bankından “yaşıl maliyyə” dəstəyi**

Hazırda Dunya Bankı (DB) “yaşıl istiqraz” və “yaşıl səhm” buraxılışında əsas maliyyə institut və emitent kimi fəallığını daha çox artırmaqdadır. Bank son 5 ildə 200 milyard dollara yaxın istiqraz emissiya edib. Bu layihələrin Azərbaycanın bank sisteminə gətirilməsi nəzərdə tutulur. “Yaşıl taksonomiya” sənədinin hazırlanmasında Azərbaycana öz dəstəyini göstərən DB ilə Azərbaycan arasında bu istiqamətdə faydalı əməkdaşlıq nəzərdə tutulur. Bank ilk mərhələdə “yaşıl maliyyə” layihələrinin icrası üçün institusional və praktiki köməkliklər göstərəcək. Bu istiqamətdə “yaşıl istiqrazlar” üzrə qabaqcıl ölkələrin təcrübələrinin, o cümlədən dayanıqlı “yaşıl maliyyələşmə” sahəsində müasir yanaşmaların respublikamızın maliyyə sektoruna gətirilməsi üçün müvafiq razılaşma əldə olunub. Bankın ekspertləri növbəti mərhələdə ölkəmizdə “yaşıl maliyyə” alətlərinin tətbiqi üçün maliyyə təchizatı göstərməyə hazır olduğunu bəyan ediblər.

Eləcə də Asiya Bankı da taksonomiyaya qoşulmaqla, Azərbaycana dəstək vermək niyyətindədir. Asiya Bankı bərpaolunan enerji ekosisteminin və “yaşıl sənaye” layihələrinin icrasında donor dəstəyini göstərəcəyini bəyan edib.

Beləliklə, Mərkəzi Bank NGFS qrupuna tamhüquqlu üzv olmaqla, beynəlxalq maliyyə institutları ilə əməkdaşlığı daha da inkişaf etdirəcək, “yaşıl iqtisadiyyat”ın maliyyə ekosistemlərinin formalaşmasına töhfə verəcək və qlobal çağırışlara uyğun siyasət tədbirlərini genişləndirəcək. NGFS dünyanın müxtəlif ölkələrindən mərkəzi bankları və nəzarət orqanlarını bir araya gətirərək maliyyə sektorunda ətraf mühit və iqlim risklərinin idarə olunmasının inkişafına töhfə vermək, bu sahədə qabaqcıl təcrübələrin paylaşılmasını təşviq etmək və dayanıqlı iqtisadiyyata keçidi dəstəkləmək üçün maliyyə axınlarının səfərbər olunmasını hədəfləyən qlobal şəbəkədir. Bu mötəbər qurumda təmsilçilik, ümumilikdə, Azərbaycanda “yaşıl iqtisadiyyat” quruculuğunun möhkəmləndirməsində də mühüm faydaverici rol oynayacaq.

*E.CƏFƏRLİ*



# 1942-ci ildən başlayan yol...

## Türkçülük ideyası tarixin çətin sınağından çıxıb

Türkçülük ideyası rəngarəng xalqa kimi toxunmuş müxtəlif mədəni elementləri, fərqli coğrafiyalarda yaşayan türk xalqlarının ortaq köklərini və dəyərlərini bir araya gətirərək, zəngin və çoxşaxəli bir mənzərə yaradır. Bu mənzərədə həm qədim dastanların qəhrəmanlıq ruhu, həm də müasir dövrün inkişaf və yenilənmə arzusu eyni anda yaşayır və bir-birini tamamlayır. Əcdadlardan qalan mirası yaşatmaq türk dünyasının xalqları üçün əhəmiyyət kəsb edən mənəvi dəyərlərdən sayılır. Türkçülük milliyyətçilik demək deyil. Özünü türk sayanlar kim olduqlarını, harada doğulduqlarını, tarixlərini mütləq bilməlidirlər.

Qeyd edək ki, mayın 3-ü Türkçülük Günü kimi qeyd olunur. Dünyadakı türklərin hər il qeyd etdiyi bu günə gətirən proseslər 1942-ci ildən başlayıb. Həmin dövrdə Türkiyənin Baş naziri milli düşüncə sahibi Şükrü Saraçoğlu olsa da, dövlət məmurları arasında kommunistlərin də sayı az deyildi. Təhsil naziri Hasan Ali Yücel kommunist olduğunu açıq söyləyir, bu siyasi görüş daşıyıcılarını orta və ali təhsil ocaqlarına yerləşdirirdi.

**Kommunizmə qarşı yüksələn türkçü etiraz**

Ölkədə kommunizm ideologiyasının yayılması, milli düşüncənin sıxışdırılması millətçi aydınları narahat etməyə başlamışdı. Dövrün böyük fikir adamlarından Nihal Atsız və digər aydınlar prosesin dayanması üçün addımlar atılmasını vacib sayır, “Bozkurt”, “Orhun”, “Çınaraltı” dərgilərində kommunizmin iç üzünü açan yazılar dərc edirdilər.

Türk ziyalılarının Sovet İttifaqının timsalında kommunizmin türk irqinin məhvinə yönəlik ideologiya olduğunu bildirən məqalələri kommunistlərə qoşulan xeyli gənci bu yoldan çəkindirdi. Ancaq kommunistlər təşkilatlanmaqda davam edir və sürətlə çoxalırdılar. Həmin günlərdə Nihal Atsız Şükrü Saraçoğluna açıq məktub yazır. Məqalə “Orhun” dərgisinin 1944-cü il mart sayında dərc edilir. Məktubda təhsil naziri Hasan Ali Yücelin əmri ilə məktəblərdə, universitetlərdə kommunizmi təbliğ edən çap məhsullarının yayıldığı, bunun üçün ianə toplandığı bildirilir. Onun bu məsələdə ən yaxın silahdaşının Sebahattin Ali olduğu göstərilir.

Yazılanlar təhsil naziri üçün ciddi problemə çevrilir. Nazir Yücel və “Ulus” qəzetinin baş redaktoru Falih Rıfkı Atayın təşfiqi ilə Sabahattin Ali Nihal Atsızı məhkəməyə verir. 1944-cü il aprelin 26-da başlanan məhkəmə prosesi elə böyük marağa səbəb olur ki, insanların çoxluğundan hakimlər salona girməkdə çətinlik çəkirlər. Məhkəməni davam etdirmək mümkün olmadığı üçün proses mayın 3-dək təxirə salınır.

Məhkəmə başlayan saatlarda milliyyətçi gənclik Ankarada böyük etiraz yürüş-mitinqi keçirir, türkçülüyə dava açanların cəzalandırılmasını tələb edirlər. Hökumət mitinqi dağıdır, 165 tələbə həbs edilərək Ankara zindanlarına salınır. Bu olay Türkiyə tarixində kommunizm əleyhinə ən böyük mitinq kimi düşür.

Mayın 3-də məhkəmə Nihal Atsızı da həbs edir. O, hücrələrinə bir nəfərin güclə sığa biləcəyi və buna görə də “tabutluq” adlandırılan həbsxanaya göndərilir.

İllər sonra Atsız həmin günlər haqqında yazırdı: “3 May türkçülüyün tarixində bir dönüş nöqtəsidir. O zamana qədər yalnız duyğu və düşüncə olan, ədəbi və elmi sərhədləri çox da aşmayan türkçülük birdən-birə geniş bir hərəkata çevrildi.

3 May türkçülərin günü olsa da, ona bir bayram deyə bilməyəcəyik. Çünki illərlə sürəcək böyük iztirabımız həmin gündən başladı. Ona bir matəm demək də qəbul edilməz. Çünki həmin gün bizə bu qədər sıxıntı arasında böyük bir imtahan vermək, ürəkləri ilə ürəksizləri ər meydanında sınaqdan çıxarmaq, yaxşı ilə yamanı ayırmaq fürsəti verdi. Türkçülər, kütləvi və ya fərdi olaraq 3 Mayı anaq və ucaldaq”.

**Həbsxanadan başlayan ənənə...**

1945-ci ilin 29 martına qədər davam edən məhkəmə prosesində Türkiyə siyasətinin 23 önəmli şəxsi haqqında “vətənə xəyanət” maddəsi ilə həbs qərarı çıxarılır. Zeki Velidi Togan, Alparslan Türkeş, Nihal Atsız, Reha Oğuz Türkkan, Cihat Savaş Fer, Nurullah Barıman, Fethi Tevetoğlu, Nejdet Sançar, Cebbar Şenel və Cemal Oğuz Öcal kimi milli düşüncəli insanlar həbsxanalarda ağır işgəncələr görür.

Türkçülük Gününü ilk dəfə 3 May məhkumları cəza evində keçirib. 1954-cü ildən isə Nihal Atsızın istəyi ilə hər il həmin gün Türkçülük Günü kimi qeyd olunmağa başlayıb. Alparslan Türkeş Milliyyətçi Hərəkat Partiyasının qurandan bu günə qədər 3 May daha geniş qeyd olunur.

*Yeganə BAYRAMOVA*

# Kiçik və orta biznesin ÜDM-də payı artır

## Son 6 ildə KOB subyektlərinin sayı 424 mini ötüb

Azərbaycan iqtisadiyyatında tədricən öz yerini tutmağa çalışan və milli iqtisadi inkişafa töhfələr verən kiçik və orta biznes (KOB) ailəsi daha da böyüməkdədir. Son 6 ildə KOB subyektlərinin sayı 74 faiz artaraq 424 min keçib ki, bu da sahibkarlıq ordusunda onların sırasının dayanmadan genişləndiyini göstərir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Bakıda keçirilən “Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır” adlı tədbirdə bildirib ki, ötən 6 il ərzində KOB-ların yaratdığı əlavə dəyərin məbləği 2 dəfədən çox artaraq 10 milyard manatdan 21 milyard manata çatıb.

KOB subyektləri qeyri-neft sektorunun aparıcı qüvvəsinə də çevrilməkdədir. KOB-lar iqtisadi artımın və sosial inkişafın mühərrikləri hesab olunur. KOB-ların dayanıqlı və davamlı inkişafa, məşğulluğun təmin edilməsinə, yoxsulluğun azaldılmasına, sahibkarlığın və innovasiyaların stimullaşdırılmasına və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına verdiyi töhfə böyükdür. Hazırda bu sektorun məşğulluq göstəricisi 47 faizə bərabərdir. İqtisadi fəallığını və potensialını artıran KOB icması ümumi gəlir portfelini də möhkəmləndirir.

O.Məmmədov vurğulayıb ki, özəl sektorun inkişafı, mikro, kiçik və orta biznes subyektlərinin dəstəklənməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Sahəvi görüşlər, regional müzakirələr, sorğular, bizneslərə birbaşa səfərlər vasitəsilə sıx ünsiyyət əsasında əldə edilmiş məlumat və ehtiyaclar sırf KOB subyektləri üçün ünvanlı dəstək mexanizmlərinin hazırlanmasına imkan verib. Ümumilikdə, 70 minə yaxın KOB subyekti və sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxslər bu dəstəklərdən yararlanıb. İndiyə qədər KOB evlərində 1,5 milyondan artıq xidmət göstərilib.

### “Startap” şəhadətnaməsi rəqəmsal uğuru təmin edir

KOB-lar son illərdə vergi potensialı da əhəmiyyətli dərəcədə möhkəmləndirib və ölkənin vergi portfelində öz payını artırmağa başlayıb. Vaxtilə hökumətin bu biznes icmasına xüsusi iqtisadi güzəşt paketləri və təşviqedici stimullar verməsi, eləcə də vergi güzəşt və azadolmaları ilə əhatə etməsi artıq öz səmərəsini göstərir və KOB ailəsi vergi ödənişlərində əvvəlki illərə nisbətən daha fəal yer tutmaqdadır.

KOB subyektləri rəqəmsallaşma sahəsində də ardıcıl addımlar atılır, KOB evinin rəqəmsal modeli olan Elektron KOB evi portalından da istifadə etmək mümkündür. Bu, sahibkarlara biznesin planlaşdırılmasından inkişaf mərhələsinədək geniş elektron xidmətlər təqdim etməsini asanlaşdırır. Bir çox dövlət xidmətinin bu platformaya inteqrasiyası istiqamətində işlər davam etdirilir ki, bu da regionlarda fəaliyyət göstərən sahibkarların inkişafına əlavə imkanlar açacaq.

KOB-ların rəqəmsallaşması və innovativ ideyalarının dəstəklənməsində də mühüm amillərdən biri “Startap” şəhadətnaməsi ilə əhatə olunmasıdır. 2026-cı ilin birinci rübündə daha 16 mikro və kiçik sahibkara “Startap” şəhadətnaməsi verilib. Startaplardan 10-u Bakı şəhərindən, 6-sı isə regionlardandır. “Startap” şəhadətnaməsi almış biznes subyektləri istehsal və xidmət sektorlarında fəaliyyət göstərir, startapların əsas istiqamətləri e-ticarət və rəqəmsal marketinq, səhiyyə texnologiyaları, onlayn oyun istehsalı, səyahət və turizm xidmətləri, rəqəmsal ödəniş sistemləri və s. sahələrdə innovativ həlləri özündə ehtiva edir. Qeyd edək ki, “Startap” şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edir. Şəhadətnamənin verilməsi, yaxud imtina edilməsi haqqında qərar KOBİA tərəfindən Ekspertlər Şurasının rəyi əsasında verilir.

“Startap” şəhadətnaməsi almış layihələr fintek, təhsil, ictimai iaşə, İKT, sənaye, turizm, biznesin rəqəmsallaşması, elektron ticarət sahələri üzrə innovativ həlləri özündə ehtiva edən mobil tətbiq və onlayn xidmətlərdir.

Ümumilikdə, indiyədək 260-dan çox mikro və kiçik sahibkarlıq subyektinə “Startap” şəhadətnaməsi verilib.

### Qlobal İnnovasiya İndeksində milli sahibkarların reytinqi yüksəlib

KOB-ların beynəlxalq reytinqlərdə də mövqeyi yüksək dəyərini almaqdadır. 2025-ci ilin sentyabrında açıqlanan Qlobal İnnovasiya İndeksində Azərbaycan “Sahibkarlıq siyasəti və mədəniyyəti” göstəricisi üzrə 139 ölkə arasında 2-ci yerdə qərarlaşıb. Eyni zamanda, xarici kapitallı şirkətlər arasında aparılmış sorğuya əsasən, KOBİA sosial-iqtisadi inkişafın dəstəklənməsi baxımından dövlət qurumları arasında lider kimi qiymətləndirilib.

### Azad ərazilərdə KOB-ların fəallığı

Azad ərazilərdə də kiçik və orta biznes sinfinin fəallığı artmaqdadır. Qarabağda biznes qurmaq üçün 3500-dən çox yerli sahibkar KOBİA-ya müraciət edib ki, bu da KOB-un marağının göstəricisidir. KOBİA bu ərazilərdə biznesə başlamaq və sahibkarlıq fəaliyyətini genişləndirmək istəyən biznes subyektlərinə informasiya və məsləhət xidməti göstərir, biznes planların hazırlanmasına dəstək verir.




2023-cü ildən KOBİA və tərəfdaşların birgə icra edilən “Qarabağ KOB-ları” layihəsi çərçivəsində yüzlərlə biznes təmsilçisi müxtəlif işlərə cəlb olunub.

Onların bir qismi biznes təlimlərini uğurla başa vuraraq, seçdikləri fəaliyyət sahəsi üzrə Dövlət Məşğulluq Agentliyi tərəfindən lazımi avadanlıqlarla təmin ediliblər. Layihənin məqsədi şəhid ailələri, müharibə iştirakçıları və onların ailə üzvlərinin sosial rifahının yaxşılaşdırılması və məşğulluğunun təmin olunmasına dəstək göstərməkdir. Ümumilikdə, KOBİA işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq, sahibkarlıq fəaliyyətini genişləndirmək və bölgəyə investisiya yatırmaq istəyən yerli və xarici biznes subyektlərinə çoxistiqamətli dəstək göstərir. Agentliyin Zəngilan rayonunun Ağalı kəndində, Laçın, Kəlbəcər və Füzuli rayonlarında fəaliyyət göstərən KOB dostu ofisləri, Şuşa şəhərində Dövlət Xidmətləri Mərkəzində yerləşən KOB evi yaradılıb.

*E.CƏFƏRLİ*

# Boğazlar bağlanarsa...

## Qlobal ticarətin "nəfəsi" harada kəsilər?

**Hörmüzdən Malakkaya uzanan təhlükəli "rüsum xətti"**

**Dənizlərin qiyməti "dəyişəcəkmi": Sərbəst keçiddən "ödənişli dünya"ya doğru?**

İki aydan artıqdır ki, davam edən, son 20 gündə isə "dumanlı sükuta" bürünən Yaxın Şərq müharibəsi qlobal dünyada böyük narahatlıqlar yaradıb. Söhbət yalnız siyasi və ya hərbi qarşıdurmalardan getmir - söhbət həm də iqtisadi geriləmələrdən, çətinliklərdən və ən əsası mənfi presedentin yaranma qorxusundan gedir. İranın Hörmüz boğazında rüsum tətbiqi arzusu beynəlxalq aləmdə bir sıra cavabsız suallar, təhlükəli "arzular" yaratmağa başlayıb - domino effekti yaşanarsa...

Məsələn, ən kritik qorxulardan biri qlobal məkanda Hörmüz qədər mühüm rola malik digər boğazların da bu "nümunə"dən bəhrələnməsidir. Qorxu da əbəs yerə deyil - artıq belə bir presendentə cəhd olunub...

**Hörmüzdən qurtarmamış başqa bir "boğaz" ortaya düşür...**

Belə ki, ABŞ və Avropa Hörmüz boğazını necə açmaq barədə düşünərkən, az qala yeni bir "boğaz problemi" də "göyərəcəkdi". Hörmüzün ardından qlobal dəniz ticarətində əsas rola malik boğazlardan digərində Malayziya və İndoneziya arasındakı Malakka boğazında yeni situasiya yarana bilərdi. Belə ki, ötən həftə İndoneziyanın maliyyə naziri boğazdan keçid üçün rüsum məsələsini qaldırmışdı. O, açıqlamasını tez bir zamanda geri götürsə də, məsələ bütün dünyada ciddi narahatlığa səbəb olub. Hörmüzün ardından digər boğazlarda da belə problemlər yaransa...

**5 boğazdan biri...**

Siyasi şərhçilər dünyada Hörmüz boğazı kimi strateji əhəmiyyətə malik, ərzaq və enerji daşımalarının əsas tranzit nöqtələri olan digər 5 mühüm boğaz üzərindən şərhlərini paylaşırlar:

- Malakka boğazı: Hind okeanı ilə Sakit okeanı birləşdirir. Dünya ticarətinin və xüsusilə neft daşımalarının ən sıx istifadə olunan marşrutlarından biridir;




- Bəb əl-Məndəb boğazı: Qırmızı dənizi Ədən körfəzi ilə birləşdirir. Avropa ilə Asiya arasında enerji və konteyner daşımalarında kritik rol oynayır;
- Bosfor boğazı: Qara dənizlə Aralıq dənizini birləşdirən əsas keçidlərdən biridir (Marmara dənizi vasitəsilə). Xüsusilə Rusiya və Xəzər regionundan neft daşımalarında əhəmiyyətlidir;
- Danimarka boğazları: Baltik dənizini Şimal dənizinə bağlayan bir neçə dar keçiddən ibarətdir (məsələn, Skagerrak boğazı və Kattegat boğazı). Avropa daxilində enerji və yük daşımaları üçün vacibdir;
- Magellan boğazı: Cənubi Amerikanın cənubundan keçərək Atlantik və Sakit okeanları birləşdirir. Panama kanalına alternativ kimi istifadə olunur.

Bu boğazların əsas strateji əhəmiyyətinə gəldikdə isə, Malakka boğazı qlobal ticarət və enerji logistikasında mühüm rol oynayır. Bu boğazın bağlanması və ya orada problemlərin yaranması Asiya (xüsusilə Çin, Yaponiya, Cənubi Koreya) üçün neft və qaz təchizatında ciddi pozuntu deməkdir. Bəb əl-Məndəb boğazının fəaliyyətində "axsamalar" isə Avropa-Asiya ticarət xəttinə və enerji bazarına əsaslı zərbə olar. Bu keçid Süveyş kanalı ilə bağlantılı işlədiyi üçün Avropa ilə Asiya arasındakı ən qısa marşrut sayılır. Bosfor boğazının əsas təsir zonası Qara dəniz regionunun iqtisadiyyatı və ərzaq bazarıdır - bu boğazın bağlanması neft, taxıl və digər xammal ixracında ciddi çətinliklər formalaşdıracaq. Danimarka boğazlarının bağlanması fonunda əsas zərbə Baltik regionunun enerji və sənaye sektoruna olacaq. Hətta Almaniya, Polşa kimi ölkələrin sənaye təchizatı böyük zərər görəcək. Nəhayət, Magellan boğazının fəaliyyətində fasilə yaranacağı təqdirdə əsas təsir regional nəqliyyat və alternativ marşrutlara olacaq. Nəticə etibarı ilə, bu boğazların bağlanması enerji bazarına (neft, qaz qiymətləri), ərzaq təhlükəsizliyinə (xüsusilə taxıl), qlobal ticarət və logistika zəncirlərinə, sənaye istehsalı və təchizat zəncirinə böyük təsir edəcək.

**"Malakka təhlükəsi": Çin həyəcanlandı...**

O ki qaldı, yuxarıda vurğulanan Malakka boğazında "Hörmüz nümunəsi"nə əl atılması cəhdinə, bu daha ağır fəsadlara yol aça bilər. "Bloomberg"in məlumatına görə, boğaz Şərqi Asiyadan Yaxın Şərqə və Avropaya ən qısa dəniz yoludur. Boğaz şimalda Tayland, cənubda isə Sinqapur olmaqla Malayziya və İndoneziya arasında uzanır. Qlobal dəniz ticarətinin təxminən 22 faizi Malakka boğazından keçir. Neft və mayeləşdirilmiş təbii qazdan kömürə, palma yağına və dəmir filizinə qədər geniş çeşiddə yüklər daşınır. ABŞ Enerji İnformasiya Administrasiyası Malakka və Hörmüz boğazlarını qlobal neft tranziti üçün əsas boğucu nöqtələr adlandırır (son illərdə Malakka boğazından Hörmüz boğazından daha çox neft daşınıb).

Uzunluğu 800 kilometr, ən dar nöqtəsində isə məsafə 2,7 kilometr olan (müqayisə üçün, Hörmüz boğazının ən dar nöqtəsi 34 kilometr enindədir) boğazın ən işlək hissələrində gəmilərin toqquşması və batması riski böyükdür - onun üçün orada dayanma, fasilə yaranması ağır nəticələrə yol açır. "Bloomberg" yazır ki, hətta "lokal qayda pozuntuları" belə, Malakka boğazından keçən nəqliyyatın hərəkətini yavaşlada və gəmiçilik xərclərini artıra bilər. Boğazı Malayziya, İndoneziya, Tayland və Sinqapurun ərazi sularına bitişikdir. Onlar birlikdə patrul xidməti göstərirlər, lakin keçid beynəlxalq boğaz kimi təsnif edilir. Bu o deməkdir ki, sahil dövlətləri boğazdan tranziti dayandıra və ya müəyyən xidmətlər üçün ödənişlərə icazə verilsə də, ona rüsum tətbiq edə bilməzlər. Məhz buna görə də İndoneziyanın maliyyə naziri Purbaya Yudhi Sadevanın "İranın təcrübəsi"nə müraciət etmə cəhdi beynəlxalq etiraza səbəb olub. Bu, xüsusilə Çin üçün arzuolunan deyil. Belə ki, dünyanın ən böyük neft idxalçısı olan Çinin daşımalarının əksəriyyəti Malakka boğazından keçir. Bu, Çini boğazdakı potensial qeyri-sabitliyə son dərəcə həssas edir - əgər keçid müharibə, qəzalar, piratçılıq və ya başqa bir böhranla bağlanarsa, Çin enerji təchizatı və ümumi ticarətlə bağlı ciddi problemlə üzləşəcək.

**Keçid qaydaları fərqlənmir - sərbəst və beynəlxalq hüquqa əsaslanan presedent**

Beynəlxalq şərhçilər bu "presedentin" digər boğazlar üzərində də müqayisəsini aparırlar. Yuxarıda vurğulanan Malakka da daxil olmaqla 5 boğazın hər birində keçid qaydaları coğrafiya, beynəlxalq hüquq və sahilyanı dövlətlərin nəzarət mexanizmlərinə görə fərqlənir. Vurğulandığı kimi, Malakka boğazında keçid UNCLOS çərçivəsində "tranzit keçidi" prinsipi ilə tənzimlənir. Gəmilər icazə almadan keçə bilər, amma beynəlxalq naviqasiya qaydalarına əməl etməlidir. Yəmən ilə Cibutinin arasında yerləşən Bəb əl-Məndəb boğazı da beynəlxalq boğaz hesab olunur və tranzit keçidi hüququ tətbiq edilir. Bosfor boğazı Türkiyənin nəzarətində olsa da, keçiddə hərəkət "Montrö Konvensiyası" ilə tənzimlənir. Ticarət gəmiləri üçün əsasən sərbəst keçid var - lakin təhlükəsizlik və naviqasiya qaydaları tətbiq olunur. Boğazda hərbi gəmilər üçün ciddi məhdudiyyətlər mövcuddur. Danimarka boğazlarının bəzi hissələri İsveç ilə paylaşılsa da, əsas nəzarət rəsmi Kopenhagendədir. Burada da UNCLOS çərçivəsində tranzit keçidi tətbiq olunur - gəmilər sərbəst keçə bilir, lakin sıx trafikə görə ciddi naviqasiya və təhlükəsizlik qaydaları mövcuddur. Çilinin nəzarətində olan Magellan boğazı isə tarixi müqavilələrə görə beynəlxalq gəmiçilik üçün açıqdır. Keçid azaddır, lakin Çili naviqasiya təhlükəsizliyinə nəzarət edir.

**Boğaz rüsumu: kim nə qədər və niyə pul alır?**

Amma adıçəkilən heç bir boğazda rüsum tələbi yoxdur. Bu boğazların çoxunda əsas prinsip "sərbəst tranzit"dir və birbaşa keçid rüsumu tətbiq edilmir. Düzdür, bəzi hallarda xidmət haqları və ya xüsusi rejimlər var. Ayrı-ayrılıqda diqqət yetirsək:

- Malakka boğazında birbaşa keçid rüsumu yoxdur. Yalnız pilotaj, liman xidməti və ya təhlükəsizlik xidmətləri üçün könüllü ödənişlər ola bilər;
- Bəb əl-Məndəb boğazında da rəsmi keçid rüsumu yoxdur. Praktikada bəzi hallarda təhlükəsizlik xərcləri (məsələn, müşayiət və ya sığorta xərcləri) olsa da, bu dövlət rüsumu deyil;
- Bosfor boğazı: vurğulandığı kimi keçid prinsipi "Montrö Konvensiyası" ilə müəyyən edilir və birbaşa tranzit rüsumu yoxdur - amma Türkiyə bəzi xidmət haqları tətbiq edir (məsələn, mayak, tibbi xidmət, xilasetmə). Pilotaj və yedəkləmə xidmətləri də ödənişlidir - bu ödəniş formal olaraq "məcburi" deyil.
- Danimarka boğazlarında da hazırda keçid rüsumu yoxdur. Əvvəllər bu boğazlarda "Sound Dues" adlı rüsum mövcud olub - lakin 1857-ci ildə ləğv olunub. Bu gün yalnız xidmət xarakterli ödənişləri görmək mümkündür.
- Magellan boğazında da keçid pulsuzdur. Çili beynəlxalq razılaşmalara əsasən rüsum tətbiq etmir. Burada da pilotaj və digər texniki xidmətlər üçün ödəniş tələb oluna bilər. Nəticə etibarı ilə, bu strateji boğazlarda birbaşa "keçid haqqı" demək olar ki, tətbiq edilmir.

Beləliklə, siyasi şərhçilər "rüsum təcrübəsi"ni olduqca təhlükəli bir hal kimi qeyd edirlər. Bu təhlükə isə Yaxın Şərqlə izah edilmir - digər boğazlar da bu nümunəyə "müraciət etsələr" qlobal ticarət "iflic" yaşaya bilər...

**P.İSMAYILOV**

# Okampo və Borrelin gizli "Karapetyan əməliyyatı"...

## Erməni lobbisi Paşinyanı devirmək üçün korrupsionerləri səfərbər edib

Cənubi Qafqazda formalaşan sülh prosesi yaxın aylarda daha da dinamikləşə bilər. Gələn ay Ermənistanda keçiriləcək parlament seçkiləri isə bu məsələdə "açar" kimi dəyərləndirilir - belə ki, sülhün irəliləməsində və müqavilənin imzalanmasında maraqlı olduğunu bildirən hazırkı Ermənistan iqtidarı həm dövlətlərarası münasibətlərin normallaşması prosesinə, həm Konstitusiya dəyişikliyinə isti yanaşır. Baş nazir Nikol Paşinyan dəfələrlə bununla bağlı öz mövqeyini açıqlayıb - o, sülhü "real Ermənistan" dövlətinin formalaşmasında ən vacib şərt kimi irəli sürüb.

On illərdi ki, coğrafiyamızda konfrantasiyanın başa çatmaması, status-kvonun qorunması, işğal siyasətinin davam etməsi, eləcə də normal münasibətlərin yaranmaması üçün bütün səylərini səfərbər edən erməni lobbisi və onun əlaltıları isə yaranan bu situasiyadan narahatdırlar. Bölgədə sülhün yaranması onların Ermənistanın əli ilə Cənubi Qafqazı qarışdırmaq planlarıyla düz gəlmir.

**Lobbi son illərdə açıq fərqlə uduzur...**

Son illərdə lobbi bu prosesdə açıq şəkildə uduzur. Bakının ortaya qoyduğu qətiyyət sayəsində beynəlxalq aləm sülh prosesini dəstəkləyir, sülh nəticəsində ortaya çıxacaq yeni iqtisadi - ticari mənzərədə yer almağa çalışır. Ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanması, Zəngəzur dəhlizi (TRİPP) ilə bağlı razılığın əldə edilməsi, ATƏT-in Minsk qrupunun ləğvini təmin edən sənədlərin imzalanması lobbinin işini daha da "çətinə" salıb. Lobbi və onların sifarişlərinin "icraediciləri" bölgədəki situasiyaya təsir göstərmək üçün dəridən-qabıqdan çıxırlar. Gah Azərbaycana qarşı xüsusi cinayətlərdə ittiham olunan və ədalət məhkəməsi qarşısında məsuliyətə cəlb edilmiş cinayətkarların "azadlığa çıxması" üçün səy göstərir, gah Qarabağı könüllü şəkildə tərk etmiş şəxslər üzərindən təbliğat qurmağa çalışır, gah da artıq tarixə qovuşmuş "separatizm" mərəzini yenidən diriltmək cəhdləri nümayiş etdirirlər. Bütün hallarda isə "oxları daşa dəyir". Hətta rəsmi İrəvan belə onların bu manipulyasiyasının qarşısında mövqe qoyur - Paşinyan dəfələrlə bildirib ki, artıq "Qarabağ hərəkatı" adlı bir mövhum yoxdur, Qarabağı öz xoşu ilə tərk edənlərə isə Ermənistan pasportu veriləcək. Cinayətkarlarla bağlı məsələyə gəldikdə isə, Ermənistanın mövqeyi burada da lobbinin mövqeyi ilə uzlaşmır.



**Okampo yenə də xəyanətkar planın mərkəzindədir**

Belə olan halda, erməni lobbisi və onların Avropadakı uzantıları yeni variantlar üzərində işləyirlər. Xüsusilə, qarşıdan gələn parlament seçkiləri üzərindən plan quranlar bölgədəki yeni konfiqurasiyaya təsir etmək, vəziyyəti dəyişmək üçün fərqli dairələrlə işbirliyinə əl atdıqlarını bildirirlər. Fakt isə ortadadır - Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) keçmiş prokuroru, dələduzluq, korrupsiya və separatizmə dəstəyi ilə ad çıxarmış Luis Moreno Okamponun və oğlunun daxil olduğu növbəti ifşaedici, sensasion kadrlar yayılıb. Mediada yayılan bu kadrlardan aydın görünür ki, onlar korrupsiyada adları hallanan Avropa Parlamentinin (AP) keçmiş üzvlərini Ermənistanda iyunda keçiriləcək parlament seçkilərinə müdaxiləyə cəlb ediblər. Məqsəd isə Baş nazir Nikol Paşinyanın qələbəsinə mane olmaqdır. İfşa kadrları təsdiq edir ki, Okampo, Avropa Parlamentinin keçmiş deputatı Cozef Borrel və digərləri Rusiyanın iştirakı ilə Ermənistanda hakimiyyətin dəyişdirilməsi, o cümlədən şəxsən Nikol Paşinyanın devrilməsi ssenarisinin mərkəzindədirlər. Anti-Paşinyan şəbəkə onun məğlubiyyətinə nail olmaq üçün bütöv bir sistem də qurub. Həmin videodan bəzi məqamlara diqqət yetirək;

"Əgər belə işlərlə məşğul olan bir şirkətim olsa, bunu maya dəyərinə edə bilərik. Məsələn, hazırda mənim komandamda əvvəllər Avropa Parlamentinin üzvü olmuş çox bacarıqlı bir adam var. O, hüquqi müşavir olub...", - Okampo deyir.

**Həmsöhbət dəqiqləşdirir: "Borrel?"**

Okampo isə heç bir tərəddüd etmədən cavab verir: "Bəli, elə həmin Borrel. Bu adam indi məni üçün Avropa Parlamentində işləyir. Mən orada çıxış edə, suallar qaldıra, onları yönləndirə və komissar fon der Lyayenə təzyiq göstərə, bəlkə, Avropa siyasətini formalaşdıra bilərəm".

Kampaniyanın maliyyə mənbələri sırasında Rusiyada yaşayan erməni oliqarxlar Samvel Karapetyan, hazırda həbsdə olan Ruben Vardanyan və digərləri var.

Videoda Okamponun oğlunun Ermənistanın siyasi vəziyyəti və baş nazirin devrilməsi planlarını açıq müzakirə etməsi isə xüsusi diqqət çəkir. Görünən odur ki, Okampo, Borrel və digərləri Rusiyanın iştirakı ilə Avropada və Avropa Parlamentində aparılan kampaniya çərçivəsində Ermənistanda hakimiyyət dəyişikliyi, o cümlədən Nikol Paşinyanın devrilməsi ssenarisinin mərkəzində olublar. Kadrlar sübut edir ki, Aİ institutları erməni lobbisinin, Ermənistanın rusiyayönümlü müxalifətinin və birbaşa Rusiyanın xidmətindədir.

**Korrupsioner Okampo pul üçün nələr etməz?**

Okamponun "kimliyi" hər kəsə məlumdur. Adını "hüquqşünas" qoymuş, əslində isə ciddi maliyyə fırıldaqları, ofşor qalmaqalları və siyasi qərəzliliklə məşğul olan Okampo erməni lobbisinin "legioneri", yəni pulla tutulmuş muzdlu "əsgəridir". Almaniyanın nüfuzlu "Spiegel" nəşrinin 2017-ci ildə dərc etdiyi qalmaqallı məqalədə Okamponun hələ prokuror işlədiyi dövrdə vergi cənnətləri sayılan Panama və Virciniya adalarında müxtəlif şirkətlər üçün idarəçiliyi həyata keçirdiyi, ancaq bunu bəyan etmədiyi barədə məqamlar yer alıb. Eyni zamanda, o, bir sıra məxfi sənədləri və məlumatları məşhurlarla, milyarderlərlə paylaşıb. 2012-ci ilin 15 avqust tarixində - BCM-in prokuroru vəzifəsindən ayrıldıqdan cəmi 2 ay 10 gün sonra Okamponun Hollandiyanın ABN Amro bankındakı hesabına 50 min dollar pul köçürülüb. Pul İsveçrədəki hesabdan daxil olmuşdu və Panamada yerləşən "Tain Bay" korporasiyası tərəfindən Avropaya göndərilmişdi. Pul transferləri getdikcə artmağa başladı. Növbəti aylarda 140 min dollar Hollandiyadakı hesaba bir neçə tranşla yenə də Panamadan daxil oldu. Jurnalist araşdırmaları təkzibolunmaz faktları üzə çıxarmaqla Okamponun qaranlıq fəaliyyətinə "işıq tutdu". 2017-ci ildə "European Investigative Collaborations" (EIC) tərəfindən sızdırılan 40 mindən çox sənəd Okamponun gizli maliyyə fəaliyyətini ifşa edib.

Okamponun vəzifədən getdikdən sonra həyata keçirdiyi fəaliyyətlər də "peşəkar dələduzluq" kimi qiymətləndirilir. O, BCM tərəfindən hərbi cinayətlərdə şübhəli bilinən şəxslərlə əlaqəsi olan liviyalı milyarder Həsən Tatanaki ilə 3 milyon dollarlıq məsləhətçi müqaviləsi bağlayıb. İddialara görə, Okampo öz nüfuzundan və məhkəmə daxilindəki mənbələrindən istifadə edərək Tatanakini hüquqi təqibdən qorumağa söz verib. Ofşor qalmaqalları və şəxsi qazanc naminə beynəlxalq hüququ manipulyasiya etməsi onun bütün iddialarını legitimlikdən məhrum edir.

Paralel olaraq Okampo Azərbaycanda ədalət mühakiməsi qarşısında məsuliyyətə cəlb edilmiş cinayətkarlar Ruben Vardanyan və Araik Artyunyan ilə dost münasibətdədir. Adıçəkilən hər iki şəxs isə Kremlə yaxınlığı ilə seçilir. Bu mənada, Okamponun "Karapetyan əməliyyatında" nə üçün seçildiyi bəlli olur.

**"Köhnə diplomat" yeni işin başında...**

O ki qaldı Aİ-nin köhnə erməniпərəsti Cozef Borrelə, o artıq "çalınmış havadır". Başqa sözlə, onun bütün "kimliyi" ortadadır. 2023-cü ildə antiterror tədbirləri zamanı separatizmə dəstək vermək üçün dəridən-qabıqdan çıxan Borrelin əli "havada" qalmışdı və o, havadarlarının, yəni erməni lobbisinin harayına çata bilməmişdi. Bu gün yenidən "meydana" atılması isə həm yeni gəlir mənbələri əldə etmək, həm də artıq ona qarşı lobbinin itmiş inamını "bərpa etmək" istəyindən qaynaqlanır. Bəlli olduğu kimi, Avropa İttifaqının erməniпərəst maraqların təzyiqi ilə yaradılmış Avropa İttifaqının Ermənistan Respublikasındakı Tərəfdaşlıq Missiyası İrəvana "doğru yol" alıb. Borrel isə Aİ-nin "köhnə" diplomatlarındandır və bu sferada tanınır. Okamponun erməni lobbisinin puluna Borreli də "şərik" etmək niyyəti də buradan qaynaqlanır. Məqsəd Borrel vasitəsilə İrəvana gedəcək insanları ələ almaq, orada tam əksinə, Rusiyanın namizədi sayılan Karapetyanın hakimiyyətə gəlməsinə kömək etmək, Paşinyanın məğlubiyyətini rəsmiləşdirməkdir. Borrel Aİ daxilində kifayət qədər korrupsiyaya bulaşmış bir şəxs kimi tanınır. O, illərdir Qərb ölkələrində fəaliyyət göstərən erməni milyarderlərin əlində oyuncağa çevrilib. Adı isə bir sıra korrupsiya qalmaqallarında siyahının başında yazılıb. Məsələn, 2022-ci ildə polis tərəfindən Avropa Parlamentinin sədr müavini, yunanıstanlı deputat Eva Kayilinin həbsi zamanı sözügedən proseslərdə Borrelin də iştirakı haqda məlumatlar var idi. Eləcə də, avroparlamentarilərin "Russiagate" işi ilə bağlı araşdırılmasında da Borrel "əsas şəxslərdən biri" kimi ön planda olub. Bu baxımdan, onun yeni korrupsiya və xəyanət planında da birincilər sırasında olması təəccüblü görünmür.

**P.İSMAYILOV**

# Din bir olsaydı yer üzündə əgər...

## Yılmaz Verdiyevin "Ləhcə farkımız fərqimizdədir" kitabı barədə düşüncələr və onun "Soydaşım" məqaləsi



*Azər Turan*

2001-ci ildə "Yeni Azərbaycan" qəzetinin "Ədəbiyyat" əlavəsinin məsul redaktoruydum. Bir gün telefonuma zəng gəldi. Türkiyədən professor Yılmaz Əsədoğlu idi.

- Bir yazı yazmışam. Onu kitab kimi çap etdirmək fikrindəyəm. Həm də sizin ona Ön söz yazmağınızı istəyirəm, - dedi.

- Yılmaz bəy, etimadınıza görə təşəkkür edirəm, amma mən sizin kitabınıza Ön söz yazacaq səviyyədə biri deyiləm, siz çox böyüksünüz, fikirləriniz, düşüncələriniz mənim yaza biləcəklərimdən xeyli yüksəkdədir, bu işi başqasına həvalə etsəydiniz...

- Turan Cavidin təqdimatını müzakirə etmirlər, siz "yox" deməyə tələsməyin. Türkiyədə yalnız Yavuz Bülənt Bakilər oxuyub. E-mail ünvanınızı verin, sizə də göndərim. Oxuyun, sonra danışarıq.

Ruhunda daşıdığı mütəvazе həzinlik, nəciblik, kübarlıq ona - böyük bir insana və dünya miqyasında tanınan dəyərli bir alimə öz kitabına Ön söz yazması üçün sıravi bir oxucuya - mənə müraciət etməyə imkan vermişdi.

Ertəsi gün Yılmaz Verdiyev dediyi yazını - "Ləhcə farkımız fərqimizdədir" yazısını göndərdi. Oxudum. Heyrət etdim. Azərbaycanlı bir fizikin belə bir əsər yazması gözlənilməz və unikal bir hadisəydi. Ortaq türkcənin problemlərini çözürdü və yazısına Əli bəy Hüseynzadənin "Ucundadır dilimin həqiqətin böyüyü / Nə qoydular deyəyim, nə kəsdilər dilimi" misralarını epiqraf vermişdi. Həmin gün ikinci telefon söhbətimiz zamanı "Siz bu gün Azərbaycanda heç kəsin yazmadığını yazmısınız", - dedim. "Mən Mişkinaz xanımın məktəbini bitirmişəm", - dedi. Mişkinaz Cavidi nəzərdə tuturdu. Dediyim kimi, Yılmaz Verdiyev 1937-ci il repressiyasının qurbanlarından Əsəd Verdiyevin oğlu idi (Əsəd Verdiyev İstiqlaliyyət küçəsindəki evdə Hüseyn Cavidin qonşusu olmuşdu. Cavid və Verdiyevlər ailəsi Sovetski məhəlləsində də qonşu olmuşdular).

Həmin gecə Yılmaz Əsədoğlundan məktub aldım: "Azər bəy, "Ləhcə farkımız fərqimizdədir" yazısının bəyənilməsi məni məmnun etdi. Yazıda bulduğunuz xətaları mənə də bildirmənizi rica edirəm. Prof.Dr. Yılmaz Əsəd Verdiyev, Trakya Universiteti, Ədirnə, Türkiyə".

Ölkə ictimaiyyəti Dünya Azərbaycanlılarının I qurultayına hazırlaşırdı. Yılmaz Verdiyevin əsəri barədə qəzetin baş redaktoru Alqış Həsənoğluna danışdım. O da əsərin bütövlükdə "Yeni Azərbaycan" qəzetində dərcinə razılıq verdi. Yazının ilk hissəsini "Dünya Azərbaycanlılarının qurultayına Türkiyədə yaşayan professor Yılmaz Əsəd Verdiyevin, heç şübhəsiz, yeni yüzillikdə çağdaş Azərbaycan türkologiyasının nadir tədqiqatlarından biri kimi etiraf olunacaq "Ləhcə farkımız fərqimizdədir" yazısını ərməğan edirik".

Yılmaz bəyin istəyini nəzərə alıb yazını Türkiyə türkcəsində təqdim etdik.

Sonra Yılmaz Verdiyev mənə başqa yazılarını da göndərdi - Xəzər türkləri barədə "Soydaşım" məqaləsi. Sonra Eynşteyn haqqında bir yazı. "Azər, oğul, sizə göndərdiyim "Eynşteynin şəxsiyyəti və elmi" məqaləm diqqətinizi çəkmiş olsa, yayınlanmasına qərar vermiş olsanız, gərəkən çevirilər, örnəyin: relative - nisbilik, ışık ışını - işıq şüası, eylem - təsir, dalga frekansı - dalğa tezliyi, tayf - spektr, birleşik alanlar teorisi - vahid sahələr nəzəriyyəsi və s. yapılmalıdır. Cevabınızı beklerim. Saygılarımla, Yılmaz müəllim".

***

1937-ci ildə Bakıda "xalq düşməni" Əsəd Verdiyevin ailəsində dünyaya gəlmiş Yılmaz bəy 1962-ci ildə Moskva Dövlət Universitetinin fizika fakültəsini bitirmiş, elə Moskvada da fizika elmlər doktoru alimlik dərəcəsini müdafiə etmişdi. Sonra Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda Kvant Sahə Nəzəriyyəsi laboratoriyasının müdiri, 1992-ci ildən 2003-cü ilədək - ömrünün sonuna kimi isə Türkiyədə Trakya Universitetinin professoru olmuşdu. Kvant Sahə Nəzəriyyəsinin dünyada seçkin isimlərindən biri olan Yılmaz Verdiyev həm də dilçilərimizin bu günə qədər xəbərsiz qaldığı "Ləhcə farkımız fərqimizdədir" adlı unikal bir araşdırmanın müəllifidir.

2003-cü ilin 15 sentyabrında Yılmaz Əsədoğlu Türkiyədə dünyasını dəyişdi. Və bu qəfil itkiyə dünyada məncə, hamıdan çox Turan Cavid vaysındı. O, sadəcə uşaqlıq və tənhalıq dostunu deyil, kədərli xatirələrinin sonuncu qəhrəmanını və ən əzizini - Yılmazını itirmişdi.

Əfsus ki, o günlərin heç bir qəzetində bu barədə ən adi bir məlumat belə yoxdur.

Sonra Yılmaz Əsədoğlunun "Ləhcə farkımız fərqimizdədir" kitabını çapa hazırladım. Bu kədərli, elmli və milli kitaba "Yılmaz bəy" adlı Ön söz yazıb nəşr etdirdim. Böyük bir elm adamının, elmdəki milli şəxsiyyətlərimizdən birinin - fizika professoru Yılmaz Verdiyevin ortaq türkcəmizin bərpası (!) naminə yazdığı bu kitab təkcə üslubuna görə deyil, içərisindəki dərd ağırlığına, kədər və düşüncə zənginliyinə, sözün həqiqi mənasında XX yüzilin Yazısını səhifələrinə sindirdiyinə görə çətin və ağrılı kitabdır... Ümumtürk dil fəlsəfəsinə tamamilə yeni baxışın ifadəsidir. Ortaq türkcənin mümkünlüyünü iddia edən bir əsərdir. Fizika ilə bədii fəhmin mistik kodlarını daşıyan bir kitabdır. Bu kitab mənə, az qala, ciddi bir roman təsiri bağışlayır. Bu kitabda 1937-ci ilin siyasi zəlzələsinin izlərini canında və taleyində yaşadan bir elm adamının ortaq türkcəmizin bərpası, yaxud yenidən hasilə gətirilməsi ilə bağlı vətənpərvər həyəcanları, insanlığın qurtuluşunu fizikanın tərəqqisində görən, "çağımız fizika və riyaziyyat çağıdır, çağımızda güclü riyaziyyatçıları və fizikləri olmayan millət güclü ola bilməz" qənaətində israrlı olan romantik üslublu bir düşüncə adamının millətə və dünyaya baxışları öz əksini tapıb.

2004-cü ildə Yılmaz Verdiyevin həmin əsəri təkrar və bu dəfə nəfis şəkildə nəşr olundu. Yılmaz Əsədoğlu kitabın girişində mənə də təşəkkür etməyi unutmayıbmış: "Sıra geldi kitabın ortaya çıkmasında emeği geçenlere teşekkür kısmına... "Lehçe farkımız fergimizdedir"i ilk okunuştan beğenen, yüksek değerlendiren ve Dünya Azerbaycanlılarının kurultayına yetiştirmek için alelacele olarak yedi parça şeklinde "Yeni Azerbaycan" gazetesinde yayınlayan Azer Turana... şükranlarımı sunarım".

***

Yılmaz Əsədoğlunun "Ləhcə farkımız fərqimizdədir" əsərini bütün dilçilərimizin, türkoloqlarımızın oxumasını çox istərdim.

Bu gün onun "Soydaşım" məqaləsini təqdim edirəm. Yaşadığımız günlərin intellektual təfsirini verən bu yazı türklər və yəhudilər, islam və iudaizm problemi barədə Yılmaz Əsədoğlunun nəzər nöqtəsini əks etdirir.

**P.S.** Şəxsi arxivimdə qoruduğum və indi gördüyünüz şəklini mənə Turan Cavid vermişdi. Şəkildə Yılmaz Verdiyevin 22 yaşı var...

**Soydaşım**

Gəncliyimdə oxuduğum "Xəzərlər" kitabından çox təsirlənmişdim. İdil və Tuna çayları arasında böyük bir ərazidə yerləşmiş, IX əsrə qədər var olmuş Xəzərlər İmperatorluğunda türklərin bir qisminin yəhudi dinini qəbul etməsi məni həmişə düşündürürdü. Ayrıca bir zamanlar SSRİ Elmlər Akademiyasının prezidenti olmuş, kosmos proqramının rəhbəri, Qaqarini kosmosa yola salan ünlü riyaziyyatçı akademik M.Keldışın əski əlifba ilə yazaraq soyadının xaricdən gəlmiş anlamını daşıyan Gel-dış olduğunu, kökəninin türklərdən gəldiyini riyaziyyatçımız Zahid Xəlilova etiraf etməsi də yaddaşımdan silinmirdi.

Bir dəfə Moskva Dövlət Universitetində tələbə yoldaşım, yəhudi soylu dostuma yarızarafat, yarıciddi olaraq: - "Sənin soyun Xəzərlərdən, yəni türk soylarından gəlmirmi?" deyə sordum. Dostum çəkik gözləri ilə gülərək: - "Deməк istəyirsən ki, eyni soydanız?" - deyib sualıma sualla cavab verdi. Mən də: - "Bəli, hər ikimizin bənzərliyinə işarə edirəm", - dedim. Dostum: - "Bu mənim də ağlımdan keçən bir fikir. Əcəba, bizim o bir tələbə yoldaşlarımızdan fərqli, isti münasibətimizin arxasında anadangəlmə bənzərliklərmi dayanır? Ailə yapımızın da bənzərlikləri məni heyran edir", - dedi. Və sonra ilginc bir etirafda bulundu: - "Sənin bu təsbitin mənim üçün yeni deyil. Məni təəccübləndirəcəyinimi düşündün? Onsuz da həyat yoldaşım mənim çəkik gözlərimin Xəzərləri xatırlatdığını deyib, mənimlə zarafat edir. Hətta tərs damarım tutanda - "Bax, yenə Xəzərli xasiyyətin ortaya çıxdı", - deyir".

Biri müsəlman, digəri yəhudi kimlikli türkün iki övladının təbii səmimiliyinin keçmişə bağlı olmasını fərq etmək qəribə bir duyğudur.

Mən dostlarıma, - "Ənəlhəq, haq mənəm, haq məndədir", deyən sufi dərvişin:

*Din bir olsaydı yar üzündə əgər,*
*Daha məsud olurdu cinsi-bəşər*

- fikrini tərcümə edib ona söylədim. Və əlavə etdim: "Nə mən müsəlman kimi müsəlmanam, nə də sən yəhudi kimi yəhudisən. Hər ikimiz də saxta sovet adamıyıq - dinsiz, imansız".

Dostum: - "Bu yaxşıdırmı?" - deyə soruşdu. Mən də: - "Yaxşı, ya pis, amma gerçəkdir", - deyə cavab verdim. Buna qarşılıq olaraq, dostum öyünərək əski yəhudi dilini - İbranicəni öyrənməyə, Tövratı oxumağa başladığını söylədi. Mənim isə öyünəcək bir şeyim yox idi. Uşaqlığımdan bizə məscidin cinşeytan yuvası olduğu fikri aşılandığından, qorxumuzdan məsciddən iki küçə aralı keçərdik. Məsciddə ilk dəfə ayaq basmağım tanınmış fizik L.V.Okunun sayəsində oldu. Bakıda Elmlər Akademiyasının qonağı olan Prof.Dr. Okun tarixi yerlərdə, o cümlədən, məsciddə olmaq istəyəndə, mən də izn alaraq onunla birlikdə ilk dəfə içimdə uşaqlıq çağlarından qalan bir qorxu ilə məscidin qapısından içəri girdim. L.V.Okunun məsciddə İslam tarixinə dair verdiyi ayaqüstü dərsi bu gün də xatırlayanda məni utanc təri basır.

Dostum yəhudi dininin ən əksi din, Tövratın ilk kitab olduğunu, xristianlığın və islamın yəhudi dininə söykəndiyini iddia edəndə məni anlaşılmaz bir qısqanclıq duyğusu bürüdü. Mən bu iddianı bir yəhudi təkəbbürü kimi anladım. Cavab verməк üçün yenə böyük H.Cavidimizə sığındım - onun dərin fəlsəfi məna daşıyan, çox sevilən "Şeyx Sənan" adlı dram əsərindən bir səhnəni ona danışmağa çalışdım.

İslam dinini yaymaq üçün Qafqaza gələn Şeyx Sənan (Şeyx Sənan tarixi şəxs olub, məzarı Tiflisdədir) gözəl xristian gürcü qızı Xumara aşiq olur. "Gözəllik Tanrının sifətlərindən biridir. Gözəlliyi idrak etmək, Tanrını idrak etmək deməkdir", fikrinə söykənən, romantik üslubda yazılmış "Şeyx Sənan" əsərində dinin əsl anlamını açıqlayan və dini xurafata qarşı deyilmiş dəyərli fikirlər vardır.

Şeyx Sənan Mədinədə ikən röyasında gördüyü Xumarla həyatda rastlaşanda haqqa yaxınlaşdığına inanır və ülvi bir inancla haqqa çatmağa, bu yolda bütün əngəlləri aşmağa, hər əzaba qatlanmağa qərar verir.

Şeyx Sənanı Xumar sevdasından vaz keçirməyə qərar verən papaz ona xaç taxmaqda israr edir.

Şeyx Sənan "Aman, Şeyxim, dur", - deyən müridlərinə xaçın bir gümüş parçası olduğunu, xaç asmağın üzük taxmaqla heç bir fərqi olmadığını anladır.

*Xaçı asmış Şeyx Sənan:*
*Bumu İsanın ərşə meracı?*
*Bən nəyim şimdi? Canlı darağacı.*

Papaz:
*Sus, çəkilməz bu türlü istehza.*

Şeyx Sənan:
*Hayır, onsuz da Həzrəti İsa*
*Bizcə, ən möhtərəm, büyük sima.*

Papaz:
*Məqsədin anlaşıldı pək rəna,*
*Şimdi Quranı al da yak...*

Şeyx Sənan:
*Əcəba!*
*Onu yakmakda varmı bir məna?*
*Bir də beyhudə etdiyin israr*
*Onda İsa və Məryəmin adı var.*

Bu səhnəni danışar-danışmaz, dostum özünə hakim ola bilmədi: - "İslam dininin ən bəşəri din olduğunumu israr edirsən?", - deyə soruşdu. "Əstəğfürullah, inancları qarşılaşdırmaq ağılsızlıqdır, abdallıqdır", - dedim. Sadəcə, bir gerçəyi xatırlatmaq istədim: - "Biz sizin peyğəmbərinizi sayğı ilə anırıq, siz isə..."

Dostumun boğazı qurumuşdu, təkəbbüründən əsər-əlamət qalmamışdı. Mən uşaq kimi etdiyimiz bu mübahisəyə son qoymaq üçün H.Cavidin şeirindən:

Bənim Tanrım gözəllikdir, sevgidir,



*Yılmaz ƏSƏDOĞLU*

- misrasını tərcümə edib ona söylədim. Və hər ikimiz bir fikirdə - "Sevgi Tanrının insanlığa verdiyi ən ülvi nemətdir", - fikrində birləşdik.

Mən bu neməti ana südü ilə qazandım. Sevginin əsl anlamını anamın məşəqqətli həyatı, böyüklüyü ilə idrak etdim. Anamı torpağa gömmədim, ürəyimin başında, saçımın bəyazında yaşatdım, yüksəldim, həp yüksəldim - başım göylərə dəyənə qədər. Hardasan? Soydaşım, səni orada aradım, görə bilmədim.

Uzun illərin ayrılığından sonra İsraildən gəlmiş köhnə dostum, tanınmış Prof.Dr. M.S.Marinovla Ədirnədə beynəlxalq bir toplantıda görüşdüm. Onun adı mənim tövsiyəmlə toplantıya gələcək dəvətlilərin siyahısına salınmışdı. Köhnə dostum qarşısında məni görəndə təəccübləndi. Türkiyəyə sığındığımdan xəbəri yox idi. Hər ikimiz çox dəyişmişdik - həm görünüşdən, həm də daxili dünyamızdan... Mənim bəmbəyaz olmuş saçlarımı seyr edərək əlini keçəl olmuş başına çəkib: - "Çox nurlu olmusan, az qala tanımayacaqdım", - dedi. Dərdli, qayğılı olmağımız üzümüzdən oxunurdu. Hər ikimizin bu halı yağmurdan qaçıb doluya yaxalanmış kimi idi. Qarşımda xoş görüntülü, sevgi dolu köhnə dostumun yerinə savaşın məhsulu olan, qatı dindar, nifrət dolu, gələcəyə ümidsiz baxan bir professor durmuşdu. Çox məyus oldum. Savaş ortamında ruhsal dəngəsini pozmadan yaşamağın hər kəsə nəsib olmadığını bir daha anladım. Özüm Türkiyəyə sığınmadan öncə savaş ortamında başsız qalmış millətimin çırpıntılarını, iztirablarını, dindaşlarından, soydaşlarından bihudə mədət ummasını yaşamışdım.

"Nifrət insanı içdən yeyən güvədir", - deyilir bir xalq deyimində. Fəqət savaş ortamında bu güvədən qurtulmaq, xilas olmaq çox çətindir", - dedim öz-özümə.

İnsanoğlunun zəkası, insan təbiətində yatan vəhşi hissləri basdırmaq amacı ilə zaman-zaman din, sənət, ədəbiyyat və son olaraq elm yaratdı. Amma istənən nəticənin hələ alınmadığı bu gün ortadadır. Nədir səbəbi? - öz-özümə soruşdum. Cavabım bu oldu: - Günümüzə qədər din, sənət, ədəbiyyat və elm hər zaman ayrı-ayrı var oldular. Səadət sevdasının bu ülvi məhsullarını birləşdirmək zamanı artıq gəlmişdir, - düşüncəsindəyəm.

İnsanlığın tək mənəviyyatla, tək elmlə deyil, həm mənəviyyatla, həm də elmlə, yəni bu iki qanadla yüksələcəyinə, insan qüruruna, onuruna yaraşan, fərəhli bir gələcəyin olacağına inandım. Elə bu inancımı da türk gəncləri ilə paylaşmaq, həp paylaşmaq istədim.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




## Şənbə üçün nəzm









*Həmid Herisçi*

Son qapıda tanınmayanlar
Atamı anası tanımadı...
məni isə
oğlum bəlkə tanımaya
həyatımın ən son qapısında.
Cib bıçağımı bəzəyən adını göstərsəm
ona -
nə bilim...
bəlkə hansısa Hollivud ssenarisinin təsiri
ilə
ürəyi səksər,
bir an titrəyər.
Bu da bəsimdi, vallah.
Qızdırmaölçən
qoltuqdan necə sürüşdüsə,
ürək də eləcə
sındı, parçalandı
daş döşəmələr üstündə.
İndi üzümü gizlətmək vaxtıdır
bahalı qəzetlərin arxasında.
Oturursan xaricdə,
bahalı otellərin foyesində.
Üzünü yox, özünü gizlədirsən
bu kağızlara.
Daha çox inanırsan onlara
nəinki yaxınlarına,
dostlarına.
Qara eynəyini azca sürüşdür aşağı -
bəlkə kimsə köhnələrdən
tanıdı səni...
Çantamı sənə tapşırıb getdim
gedərgəlməzlərə.
Ən düzgün hərəkəti
bütün səhvləri edən kəs edəcək -
yəni mən.
İncimə.

***

"Amerikano" barlarında
axtardığımı tapmaq çətindir,
əgər axtardığın
insandırsa.
Bu yerlər
itmək istəyindən yaranıb.
Bəlkə bir gün
uzun masanın o başından
bir qədəh sürüşəcək sən tərəfdən -
kreyser sürəti ilə
mənə doğru.
Və mən...
qaranlığın bağrından çıxan əlimlə
onu tutacam.
Sənin mesajını
boğazımda əridəcəm.

***

Ağlamağa gəlincə -
birinci həmişə insan ağlayır,
sonra yağışlar, bulaqlar...
birinci həmişə insan ağlayır,
sonra bütün qalanlar.
Sonra -
bütün yağışlar
ildırım xətkeşi ilə
göylərin ölçüsünü çəkər.

***

Yediyimiz çörəklər dadsızdır...
onlara dad verən
zindana göndərilən çörəklərin içindəki
gizli məktublardır.
Orda, şikəstə xəttiylə
mənim hikmətlərim yazılar.
Göy üzü də yer üzüdür -
sadəcə torpaqsız.

***

Bu dünyada nə varsa
həm var, həm də yox.
Bütün sevgilər bitər,
amma sonunda
nöqtə olmaz.

***

Uşaqlar ağlasın -
onların gözündə su var,
hələ göz yaşı yox.
Ölüm bizim sözləri tələffüz etsə,
bir səs düşər içindən.
İnsan da belə ölər -
amma
göyə buraxılan çərpələng
ipini qırmasa,
azad ola bilməz.

***

Cəlaləddin...
külək tərpədəcək
qəmin tərəzisini.
Hər nə var idi -
sənə yar idi.
Qapı da divar idi
Şəmsin nuru gəlməyincə.
Mən sevgilimi yox,
sevgini sevirəm.

***

Siz gedirsiniz -
mən yol gedirəm.
Pəncərələri eynək kimi taxmış evlərdə
dünyanın kor olduğunu görürəm...
Mən...
Mən...
Mən...

***

Bu yaz...
heç kimi sevmədim.
Heç kimi.
Nə özümü,
nə gecələrimi,
nə də güzgüdə gördüklərimi.
Ancelikanı belə
Triyestin çirkab sularına atdım.
Xəyanətləri gördüm,
güllələnən anları,
və bir az
gülümsədim.
Üzərində "Axtarışdadır" yazılan
öz şəkillərimə
nəhayət bənzədim.
Kimsəni sevmədim.
Dünya silkələndi,
amma axırda hər şey
bir cümləyə sığdı:
bu yaz
mən heç kimi sevmədim.
İndi dayanmalıyam,
dərin düşünməliyəm.
Dalğaların dilində,
kölgələrin birləşməsində
hekayəmi danışmalıyam.
Həyat mənə
öz qara əlcəyini atdı.
Triyestin küçələrində
pişiklərin gözləri
şeytan kimi parıldadı.
Boz tüstü
göyə qalxa bilmədi.
Yollar azdı,
maşınlar məni tapdı.
Gözlərim son dəfə yazdı:
"bu yaz mən heç kimi sevmədim..."
və sonra -
güllələbaran başladı.

***

Ekvator xətti, Çin səddi, son həddi,
bir son hüdudu da var.
Ancaq bu hüdudu pozan
Mən kimi bir ala buludu da var!!!
Uçar,
sənə tərəf həmişə, uçar, uçar...
Ucalar.
Televizor pultunun proqramını,
Bu uşaq həmişə qatıb - qarışdırar.
Bu Təbrizdə ağcaqanadlara qarşı bir dərman var
Adı " Taro mar!" -
Qorxur ondan amerikanlılar!
Təyyarələrdə son həqiqəti deyəcək
Bir qara qutu var...
Bilirəm, irəlidə Donald Trampın sevdiyi
Cümə günü, ayın 13-ü var,
ABŞ təyyarələrinin Təbriz üzərinə hələ
kütləvi hücumu var,
Bunun erməni̇si var, kürdü var...
Tehran beş gündü yanır,
Üfüqlərin qapqara tüstüsu var,
Qonşu Qulamhüseyn kişinin gözləri qızarıb...
ölüsü var...
Hə... divarlar aşılmazdı Təbrizdə guya....
Ancaq bu divarlara dırmanan Dərbəndi
üzümü də var!!!
Oturmuşuq Təbrizin " Şairlər qəhvəsi"ndə çaysız,
qara qazanlarda baxırıq qalaysız....
Qəlyansız.
Şair əvəzi bir baqqal danışır:
- Bunun hələ Səudisi var...
Bu kafenin hələ qara bir küncü var...
Ordan, növbəti qafiyə səslənir:
- Hələ bu işin YƏHUDİSİ var...
Neynək...
Nuşirəvanın hələ bayquşu da var...
O biri küncdə satdıq 100 min dollarlıq
uyuşdurucu tozu var!
Hələ bir az da ucuzu var!
Ancaq bütün bu iyrənc mənzərələrdən bir
gözələ tərəf gedən
Həyat izi var...
Bu zülmətin öz musiqisi,
uzaq it zingiltisi var...
Burda peşmançılıq hissi var,
bir nəfərin soyumaz hirsi var,
Nə yaxşi ki, bir bədbəxt Həmidin dizi var
-
Ovcunu çırpmağa...
İlhamiyyə, mənə bir yuxu ver,
iyləməyə bir qoxu ver,
Mən Puşkinin seçdiyi bu dəfəki duel,
Qalibindi...
Əsl şairindi.
Həyat bizim televizion duetinindi...
Sənin ancaq bir telesüjetindi!

# Balaca Buker

## Elan edildi. Uşaqlar nə oxuyacaq?



*Məqsəd Nur*

"Onlar" nə desə, o da oxunacaq. Yeni dəb, yeni dünya, yeni çağırışlar - ümumiyyətlə, yeni İnsan üçün mütaliə edilməli olan (tələb olunan) nə varsa ortalığa qoyulacaq. Bir oyuncaq, hətta bir xətkeş belə, informasiya daşıyıcısıdır, mütaliədir - o da ola kitab. "Onlar" deyəndə hər iki tərəf nəzərdə tutulur: mükafat verənlər və əvəzində yeni "oyuncaqlar"ı kəşf edən balaca oxucular...

Ötən həftə Buker Mükafatı (The Booker Prizes) yeni Uşaq Buker Mükafatını elan etdi. Səkkiz kitabdan ibarət qısa siyahı 24 noyabr 2026-cı ildə, qalib isə 2 fevral 2027-ci ildə elan ediləcək. Üç böyük münsif müəyyənləşib. Bunlar - uşaq kitablarının müəllifi, ssenarist Frank Kotrel Boys, məşhur komediya aktyoru, yazıçı Loli Adef və Londonda yerləşən uşaq kitab mağazasının sahibi Sançito Basu de Sarkardır. Digər iki münsif isə uşaqlar arasından seçiləcək, yəni, qiymətləndirmə böyüklərdən və uşaqlardan ibarət münsiflərin ixtiyarına buraxılacaq. Qalib gələn kitabın da münsif uşaqlar tərəfindən öz həmyaşıdlarına tövsiyə edilməsi təmin olunacaq.

Vəssalam. Yerdə nə qaldı? "Cırtdan"dan bərk yapışmaq? Bəlkə də.

Bu, son əlli ilin dünya uşaq ədəbiyyatına qoyulmuş investisiyaların, cəhdlərin, böyük bir industriyanın, hətta infrastrukturun nəticəsidir. Daha doğrusu, məntiqi nəticənin davamıdır. İndiyədək hər tərəfdə satılan oyuncaqlar, cizgi filmləri, əşyalar və nəhayət yeni dövrün yeni kitabları... Əlbəttə, Bukerin bu cəhdi həm də yeni suallara cavab tapmaq, gələcəyin oxucusunu anlamaq da (bəlkə də müəyyənləşdirmək) ola bilər. Yoxsa ki, uşaqlar nə ətafdakı problemləri, nə gələcək təhdidləri, nə də dünyamızın yeni mənzərəsini indidən necə bilsinlər? Deməli, onların əvəzinə kimsə mütaliə "oyuncaq"ları müəyyənləşdirməli və gələcəyi idarə etməyə çalışmalıdır. Bəlkə də boş xülyadır, cəhddir: uşaqlar, vaxtı gələndə, özləri nəyin necə olacağına qərar verəcəklər. Bax məhz buna əmin olmaq şübhəli, dumanlıdır. Elə isə, "Mədəniyyət - 2040" Konsepsiyası üçün yeni, müzakirə oluna biləcək suallar yaranmırmı?

Hələlik böyük Buker özünə yol yoldaşı axtarır, o da böyüyüb yenə Buker olacaq. Bəs sonra? Kim, nəyi və necə mütaliə edəcək? Yəqin ki, Bukerin yeni cəhdləri bütün bu suallara cavab axtarmaqdır. Biz nə edəcəyik?

Əgər ki, Cırtdan getsə yatmağa, Div oyaq qalacaq....

# Söz azaddırsa, cəmiyyət güclüdür...

## Mətbuat azadlığı olmadan inkişaf mümkün deyil

Mətbuat azadlığı cəmiyyətin nəfəsi kimi qəbul edilən, informasiyanın sərbəst dövranını təmin edən və ictimai fikrin formalaşmasına güclü təsir göstərən bir dəyərdir. Onun mövcudluğu yalnız jurnalistlərin deyil, bütövlükdə vətəndaşların hüquq və azadlıqlarının qorunmasının əsas şərtlərindən biri kimi çıxış edir. Bu azadlıq sayəsində insanlar ölkədə və dünyada baş verən hadisələr haqqında operativ, dəqiq və müxtəlif baxış bucaqlarından məlumat əldə edir, fərqli düşüncələri müqayisə edərək öz mövqelərini formalaşdırırlar. Beləliklə, demokratik proseslərin fəal iştirakçısına çevrilirlər.

Mətbuat azadlığının olmadığı və ya məhdudlaşdırıldığı mühitlərdə isə informasiya tək mənbədən təqdim olunur, tənqid susdurulur. Nəticədə, cəmiyyətin inkişafı ləngiyir, çünki müxtəlif fikirlərin toqquşması və müzakirəsi olmadan sağlam qərarların qəbul edilməsi çətindir. Halbuki azad mətbuat təkcə xəbərləri çatdırmaqla kifayətlənmir, eyni zamanda korrupsiya, ədalətsizlik və sosial problemləri üzə çıxararaq ictimai nəzarət funksiyasını yerinə yetirir və hakimiyyət ilə vətəndaş arasında şəffaf körpü rolunu oynayır.

Bu sahədə çalışan jurnalistlər bəzən risklərlə üzləşsələr də, onların qələmindən süzülən hər bir cümlə həqiqətin işığını daha da gücləndirir və cəmiyyətin maariflənməsinə töhfə verir. Çünki azad sözün gücü yalnız məlumat verməkdə deyil, həm də insanları düşündürməkdə, sual verməyə sövq etməkdə və dəyişiklik yaratmaqda gizlənir. Məhz buna görə də mətbuat azadlığının qorunması hər bir cəmiyyət üçün prioritet olmalı, bu sahədə çalışanların təhlükəsizliyi və müstəqilliyi təmin edilməli, fərqli səslərin eşidilməsi üçün geniş imkanlar yaradılmalıdır.

**33 il öncə verilən qərar...**

33 il bundan öncə, 1991-ci il mayın 3-də Namibiyanın paytaxtı Vindhukda regional seminara toplaşmış media işçiləri mühüm çağırış etdilər. Həmin çağırışa əsasən, mətbuat azadlığının və demokratiyanın təminatına yardımçı olmağa çağıran Vindhuk Bəyannaməsi qəbul olunub. Bunun nəticəsi olaraq BMT Baş Məclisi 1993-cü ildə mayın 3-nü Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü elan edib.



Azad sözün şərəfinə elan olunmuş Dünya Mətbuat Azadlığı Günü "soyuq müharibə" dövrünün başa çatması ilə yer kürəsinin vahid informasiya məkanına çevrilməsinin məntiqi nəticəsi kimi ortaya çıxıb. XX əsrin son onilliyində dünyada yaranmış siyasi reallıqları nəzərə alan müxtəlif ölkələrin jurnalistləri 1990-cı ilin fevralında Parisdə azad mətbuat prinsiplərinin manеəsiz yayılması və bəşəri bəlalara qarşı birgə mübarizənin zəruriliyini bildiriblər.

**Azərbaycanda mətbuat azadlığı**

Azərbaycan mətbuatının keçdiyi tarix xalqımızın qürur mənbəyidir. Bu yolun şərəf, ləyaqət yolu olduğu heç kimdə şübhə doğurmur.

Dünya Mətbuat Azadlığı Günü Azərbaycanda da fəal dəstəklənir. Müstəqil Azərbaycan dövləti ölkədə insan hüquqlarının müdafiəsi, söz və mətbuat azadlığı kimi məsələlərə xüsusi önəm verir. Dövlətimiz azad sözün cəmiyyətin həyatında üstün yer tutması, manеəsiz yayılması üçün zəruri addımlar atıb.

Azərbaycanda söz və məlumat azadlığının təmini ilə bağlı müvafiq qanunvericilik aktları qəbul edilib. 1998-ci il avqustun 6-da Azərbaycan Prezidentinin fərmanı ilə mətbuat üzərində senzura fəaliyyəti ləğv olundu. Senzuranın ləğvi və bu qəbildən digər tədbirlər müstəqil KİV-lərin inkişafını, vətəndaşların beynəlxalq hüquq normaları və Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığını təmin edib. Bu da demokratik cəmiyyət quruculuğu yolunu seçən Azərbaycanın perspektiv hədəflərinə uyğun idi.

Müstəqil KİV-lərin sayına görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında qabaqcıl mövqelərdən birini tutur. 3 may - Dünya Mətbuat Azadlığı Gününün geniş qeyd edilməsi artıq ölkəmizdə də ənənə halını alıb. Bu gün münasibətilə bir sıra tədbirlər keçirilir, dövlət qurumlarının və KİV-lərin nümayəndələri bu sahədə mövcud durumu və ölkə mətbuatının inkişafı yollarını müzakirə edirlər.

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5250**
**Sifariş: 551**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin
aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova